

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 24 (764) ■ 24 iyun 2015 | www.vergiler.az | Qiyməti: 40 qəp.

# Azərbaycan islam həmrəyliyi üçün bütün imkanlardan istifadə edir

## *Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul edib*

İyunun 22-də müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın islam ölkələri çox sıx əlaqələri var: «Biz ikitərəfli formatda gözəl əməkdaşlıq edirik və bu əməkdaşlıq gündən-günə dərinləşir. Biz maraqlıyıq ki, müsəlman ölkələri ilə siyasi, iqtisadi əlaqələrimiz, mədəniyyət sahəsində əlaqələr daha da inkişaf etsin. Eyni zamanda, biz beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirik, birbirimizi dəstəkləyirik. Xüsusilə, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bizim əməkdaşlığımız çox yüksək səviyyədədir».



Son vaxtlar İslam Əməkdaşlıq Təşkilatı ilə ölkəmiz arasında əlaqələrin daha da inkişaf etdiyini xatırladan dövlətimizin başçısı bu qurumun Azərbaycanda gedən proseslərə çox yüksək qiymət verdiyini qeyd edib: «Biz də təşkilatın fəal üzvü kimi çalışırıq ki, ölkələr arasındakı həmrəyliyi daha da gücləndirək. Ümumiyyətlə, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, İslam həmrəyliyi daha da möhkəmlənməlidir və müsəlman ölkələri birbirinə daha da böyük dərəcədə dəstək verməlidir. Xüsusilə ölkələrimizi narahat edən məsələlərdə bu dəstəyə daha da böyük ehtiyac var. Biz bu dəstəyi görürük, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Azərbaycanın mövqeyi müsəlman ölkələri tərəfindən dəstəklənir. Həmçinin BMT-də müsəlman ölkələrinin mütləq əksəriyyəti bizim mövqeyimizi dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı isə dəfələrlə münaqişə ilə bağlı reallığı, ədaləti, beynəlxalq hüququ və Azərbaycanın mövqeyini əks etdirən qətnamələr qəbul etmişdir».

Dövlətimizin başçısı bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması region üçün ən böyük təhlükə mənbəyidir: «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Ermənistan isə beynəlxalq hüquq normalarını kobudcasına pozur və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmir. Ancaq haqq, ədalət, o cümlədən tarixi ədalət və beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. Ədalət bərpa olunacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək».

Azərbaycan Prezidenti dövlətin dinə olan yüksək münasibətindən danışıb, ötən dövr ərzində ölkəmizin həyatında çox əlamətdar hadisənin baş verdiyini - Bakıda ən böyük məscid - Heydər məscidinin tikilib istifadəyə verildiyini diqqətə çatdırıb: «Azərbaycan dövləti öz tarixi keçmişinə, tarixi abidələrinə çox böyük diqqətlə yanaşır. Bizim bütün tarixi məscidlərimiz əsaslı şəkildə təmir olunub, bərpa edilib. Bizim qədim və müasir dini abidələrimiz bütün müsəlman aləminin sərvətidir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı məscidi Azərbaycanda yerləşir, 743-cü ildə tikilmişdir. O, bir memarlıq əsəridir. Dünyanın ən yeni məscidlərindən biri olan Heydər məscidi 2014-cü ildə Bakıda tikilmişdir. Bu məscid də gözəl memarlığa malik olan bir sənət əsəridir. Yəni bu, bir daha ölkəmizin öz keçmişinə, xalqımızın öz dininə olan hörmətini əks etdirir».

Prezident İlham Əliyev müsəlman ölkələri arasındakı həmrəyliyin gücləndirilməsi üçün səylərin artırılacağını, iki ildən sonra Bakıda İslam Həmrəylik Oyunlarının keçiriləcəyini və bu Oyunların bütün müsəlman ölkələrini biri-biri ilə daha da sıx birləşdirəcəyinə əminliyini ifadə edib.

**rəsmi xronika**

### Dövlətimizin başçısı Türkiyə səfirliyində olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub. Dövlətimizin başçısı Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəlin vəfatı ilə əlaqədar başsağlığı verib.

Prezident İlham Əliyev səfirlikdə ümummilli lider Heydər Əliyevin Türkiyənin mərhum Prezidenti ilə müxtəlif vaxtlarda keçirdiyi görüşləri əks etdirən fotolardan ibarət stendə baxıb.

Sonra dövlətimizin başçısı matəm kitabına ürək sözlərini yazıb.

### İkitərəfli münasibətlər daha da möhkəmlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Macarıstan Respublikasının Milli Assambleyasının sədri Laszlo Köverin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İki ölkə arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev Macarıstana sonuncu səfərini məmnunluqla xatırladıb. Ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın da fəal şəkildə inkişaf etdiyini bildirən dövlətimizin başçısı müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana son səfərinə toxunan Laszlo Köver onun mühüm əhəmiyyət daşıdığını və səfər çərçivəsində imzalanan sənədlərin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmini bildirib. Macarıstanlı qonaq birinci Avropa Oyunlarının ölkəmizdə yüksək səviyyədə təşkil olunduğunu məmnunluqla vurğulayıb.

Görüşdə ölkələrimiz arasında əlaqələrin enerji, təhsil, səhiyyə və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan Prezidentinə çempion kəməri təqdim olunub

*İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Sambo Federasiyasının prezidenti Vasili Şestakov ilə görüşüb.*

Federasiya prezidenti Vasili Şestakov ölkəmizdə keçirilən Avropa Oyunlarının yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına təşəkkürünü bildirib və sambonun Azərbaycanda və bütün dünyada inkişafına göstərdiyi böyük xidmətlərinə görə Beynəlxalq Sambo Federasiyası İcraiyyə Komitəsinin qərarı ilə çempion kəmərini Prezident İlham Əliyevə təqdim edib.

V.Şestakov bildirib ki, belə bir kəmər fəxri prezident kimi ilk dəfə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə təqdim olunub, ikinci kəmərə isə məhz Azərbaycanın dövlət başçısı layiq görülüb. Qonaq ölkəmizdə güclü sambo məktəbinin olduğunu və bunun maraqla izləndiyini vurğulayıb.

Belə yüksək qiymətə görə Beynəlxalq Sambo Federasiyasının rəhbərliyinə minnətdarlığını bildirən Azərbaycan Prezidenti bu idman növünün ölkəmizdə çox sevildiyini, birinci Avropa Oyunlarından sonra sambo bölməsinə axının daha da artacağına əminliyini ifadə edib: «Hamı gözəl bilir ki, cüdo Olimpiya idman növü olduğuna görə gənclər və uşaqların özünə daha çox cəlb edir. Hamı Olimpiya çempionu olmaq istəyir. Biz sambonu da bu cür dəstəkləyirik və dəstəkləyəcəyik».

Vasili Şestakov Azərbaycan idmançısı, sambo üzrə 7 dəfə dünya çempionumuz Ceyhun Məmmədovu sambonun Azərbaycanda əfsanəsi adlandırıb və Beynəlxalq Sambo Federasiyanın ən yüksək mükafatına - Qızıl nişana layiq görüldüyünü diqqətə çatdırıb. Qeyd edib ki, tarixdə cəmi bir idmançı bu nişanla mükafatlandırılıb.



# Olimpiya Komitəsinin prezidenti Patrik Hikki «Şərəf» ordeni ilə təltif olunub

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki «Şərəf» ordeni ilə təltif olunub.*



İyunun 17-də yüksək mükafatı Patrik Hikkiyə təqdim edən dövlətimizin başçısı bildirib ki, iyirmi ilə yaxındır ki, Avropa Olimpiya ailəsinin üzvü olaraq Patrik Hikkinin idmanın inkişafına sadiqliyinə, fəaliyyətinə və fədakarlığına çox yaxşı bələddir: «Mən Avropa Olimpiya Komitəsinin iclaslarında bizim birgə iştirak etdiyimiz vaxtları xatırlayıram. Təəssüf ki, hazırda mən işimlə əlaqədar iclaslarda iştirak edə bilmirəm, lakin Sizin fəaliyyətinizi yaxından izləyirəm. Mən Sizi dünyada Avropa idmanının təbliği ilə bağlı əldə etdiyiniz böyük nailiyyətlər münasibətilə təbrik etmək istəyirəm».

Dövlətimizin başçısı ilk Avropa Oyunlarının təşkili ilə bağlı Avropa Olimpiya ailəsinin dəstəklədiyi qərarı tarixi hadisə adlandırıb və Oyunların Bakıda keçirilməsindən qürur duyduğunu qeyd edib: «Bu, bizə ölkəmizi təqdim etmək, imkanlarımızı nümayiş etdirmək və möhtəşəm tədbiri təşkil etmək imkanı verir. Biz ictimaiyyətin bu tədbirə böyük maraq göstərdiyini görürük. Əminəm ki, Oyunlar sona çatandan sonra biz minlərlə insanın, xüsusilə uşaqların idmana marağının artmasının, çempion olmağa çalışmasının şahidi olacağıq. Bu, Azərbaycanda idmanın gələcək inkişafında olduqca mühüm rol oynayacaq».

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki yüksək mükafata görə dövlətimizin başçısına təşəkkürünü bildirib, Azərbaycanı və paytaxt Bakını öz ikinci evi hesab etdiyini vurğulayıb.

# Əlaqələrin inkişafı üçün hərtərəfli zəmin var

*Azərbaycan Prezidenti İlham Əliyev Latviyanın yeni seçilmiş Prezidenti Raymonds Veyonislə görüşüb.*

Dövlətimizin başçısı R.Veyonisi Latviya Prezidenti seçilməsi münasibətilə təbrik edib, ona ali dövləti fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev Azərbaycanla Latviya arasında ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

R.Veyonis Latviya-Azərbaycan əməkdaşlığının yaxşı səviyyədə olduğunu bildirib, ölkələrimizin iş adamları, müxtəlif nazirliklər və qurumlar arasında əlaqələrin genişləndirilməsi üçün böyük imkanların mövcudluğunu qeyd edib.

2 Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları artır

3 Mənfəət vergisinin şərti üsulla hesablanması

4 Dövlət qurumlarının informasiya sistemlərinin monitorinqi keçiriləcək

5 Yeni stimullaşdırıcı layihələr planlaşdırılır

# Vergilər naziri Fazil Məmmədov Qazaxda vətəndaşları qəbul edəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər. Bu məqsədlə 3 iyul 2015-ci il tarixdə vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Qazax rayonunda yerləşən Qazax Olimpiya İdman Kompleksində (ünvan: Qazax rayonu, Xanlıqlar kəndi) Qazax, Ağstafa və Tovuz rayonlarından olan vətəndaşları qəbul edəcəkdir.

Qəbulda vergilərin hesablanması, ödənilməsi, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər və vergi ödəyicilərinə göstərilən xidmətlərlə bağlı müraciətlərə baxılacaqdır.

Adları qeyd edilən rayonlardan olan, qəbulda iştirak etmək istəyən vətəndaşlar Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi; 14 saylı Ərazi Vergilər İdarəsi (əlaqələndirici şəxs: Muraz Ağası oğlu Rzayev, əlaqə telefonu: (022) 30-5-31-03, mobil (050) 254-41-02); Qazax Rayon Vergi Ödəyicilərinə Xidmət Mərkəzi (əlaqələndirici şəxs: Qəzənfər Ələkbər oğlu Talıbov, əlaqə telefonu: (022) 29-5-09-57, mobil (050) 254-41-09); Ağstafa Rayon Vergi Ödəyicilərinə Xidmət Mərkəzi (əlaqələndirici şəxs: Afiq Maqsud oğlu Bayramov, əlaqə telefonu: (022) 22-5-35-90, mobil (050) 254-41-10); Tovuz Rayon Vergi Ödəyicilərinə Xidmət Mərkəzi (əlaqələndirici şəxs: Sadıqov Murad Nazim oğlu, əlaqə telefonu: (022) 31-5-73-69, mobil (050) 254-41-67) vasitəsilə əlaqə saxlayıb qəbula yazıla bilərlər.

*Qeyd: May ayının 22-də vergilər naziri tərəfindən Şabran rayonunda vətəndaşların qəbulunun keçirildiyi, habelə iyun ayının sonunda ilk Avropa Oyunları ilə bağlı tədbir planlaşdırıldığı nəzərə alınaraq, növbəti qəbulun əvvəlcədən elan olunduğu kimi iyun ayının 30-da Şabran rayonuna yaxın ərazidə yerləşən Xızı rayonunda deyil, iyul ayının 3-də Qazax rayonunda keçirilməsi məqsədəuyğun hesab edilmişdir.*

# Məqsəd dövlət orqanlarına etimadın möhkəmləndirilməsidir

*İyunun 19-da Vergilər Nazirliyinin Tədris Mərkəzində təşkil edilmiş təlim korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı kimi mövzuları əhatə etmişdir.*

Məruzəçilər «Korrupsiyaya qarşı mübarizə haqqında» Qanunun hüquqpozmaların aşkar edilməsində, qarşısının alınmasında, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsində, şəffaflığın və səmərəliliyin təmin edilməsində əhəmiyyətini vurğulamışlar. Qeyd olunmuşdur ki, qanunun tətbiqində əsas məqsəd əhalinin dövlət orqanlarına olan etimadının möhkəmləndirilməsi, korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsini istisna edən şəraitin yaradılmasıdır.



Təlimdə maraqların toqquşması və məlumat azadlığı məsələsi də ayrıca mövzu kimi müzakirə olunmuşdur: «Məlumat azadlığı haqqında» Qanunun müddəaları, Vergi Məcəlləsində maraqların toqquşması və bununla bağlı ayrı-ayrı hallar şərh edilmiş, məlumat azadlığının pozulması və maraqların toqquşması halları üzrə məsuliyyət məsələsinin ölkə qanunvericiliyi ilə tənzimləndiyinə diqqət yönəldilmişdir.

Tədbi zamanı «Vergi işçisinin etik davranış Kodeksi»nə xüsusi yer ayrılmış, bu sənədin müddəalarının mahiyyət etibarilə əxlaqi və intizam xarakteri daşıdığı, vergi orqanı əməkdaşlarının vergi ödəyiciləri ilə münasibətləri qəbul olunmuş etik normalar çərçivəsində qurmasının zərurliyi vurğulanmışdır.

Təlimdə toxunulan məsələlərin nazirliyin növbəti «Məlumat saatı»ında şəxsi heyətin iştirakı ilə müzakirə olunması qərara alınmış, ortaya çıxan problemlərin həlli ilə bağlı təxirəsalınmaz tədbirlər görülməsi barədə iştirakçılara müvafiq tapşırıqlar verilmişdir.

# Dünyanın sığorta nəhəngləri Bakıya gəlir

*İyulun 2-3-də Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin (DSNX) dəstəyi və Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) təşkilatçılığı ilə 6-cı Azərbaycan Beynəlxalq Sığorta Forumu (AIIF-2015) keçiriləcək.*

Builki forum Qafqaz regionunda sığorta və təkrarsığorta bazarına həsr olunmuş ən mühüm tədbir olmaqla, bu sahədə ən vacib istiqamətləri və perspektivləri müəyyən edəcək. Tədbirin iştirakçıları arasında interaktiv ünsiyyətə istiqamətlənmiş platforma olacaq ki, bu da ölkələr arasında sığorta sahəsində əməkdaşlığın möhkəmlənməsinə imkan verəcək.

Foruma 21 xarici ölkənin 57 şirkətinin qatılacağı gözlənilir. Dünyanın məşhur «Swiss Re», «Munich Re», «Hannover Re», «Scor», «Allianz», «Ace Group» «Jardine Lloyd Thompson Group», «Deloitte», «Standard and Poor's», «Audatex» və digər şirkətlərinin yüksək təmsilçilərinin tədbirdə iştirak edəcəyi gözlənilir. Azərbaycandan isə 27 sığorta, təkrarsığorta və broker şirkətlərindən 100-ə yaxın nümayəndə foruma qatılacaq.

İnteraktiv şəkildə keçiriləcək «AIIF-2015» forumunda plenar iclas, ikitərəfli görüşlər və «workshop» formatında müzakirələr aparılacaq.

Forumun qeyri-rəsmi hissəsində «PAŞA Həyat» sığorta şirkətinin sponsorluğu ilə iştirakçılar arasında rəmzi Avropa Oyunları üzrə boulinq yarışması da təşkil olunacaq.

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Sığorta Forumu MDB məkanında xarici ölkələrin və şirkətlərin qatıldığı ən böyük sığorta tədbiridir.

# Qeyri-neft sənayesində artım olub

*2015-ci ilin yanvar-may aylarında ölkə sənayesinin təsərrüfat subyektləri tərəfindən 10,8 milyard manatlıq məhsul istehsal olunaraq 3,7 faizlik artım qeydə alınmışdır.*

Dövlət Statistika Komitəsinin məlumatına görə, sənayenin qeyri-neft sahələrində istehsalın həcmi əvvəlki ilin yanvar-may aylarının səviyyəsini 12,4 faiz, neft-qaz sektorunda isə 1,4 faiz üstələmişdir.

Sənaye məhsulunun 63,5 faizi istehsal olunmuş mədənçıxarma bölməsində 17,6 milyon ton neft, 8,5 milyard kubmetr əmtəəlik təbii qaz və digər məhsullar hasil edilmişdir. Emal bölməsində istehsalın həcmi sənayenin ümumi məhsulunun 28 faizini təşkil etmiş qida, kağız və karton, poliqrafiya, neft məhsullarının, kimya sənayesi məhsullarının, rezin və plastmas məmulatların, tikinti materiallarının, metallurgiya, hazır metal məmulatlarının, elektrik avadanlıqlarının və s. məhsulların istehsalında artım müşahidə edilmişdir.

İstehsal edilmiş sənaye məhsulunun 7,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsinin payına düşür.

Ümumi sənaye istehsalının 88,4 faizi malların (əmtəələrin), 11,6 faizi isə sənaye xarakterli xidmətlərin payına düşmüş, məhsulun 76,3 faizi özəl bölmədə istehsal olunmuşdur.

# Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları artır

Statistik göstəricilərə əsasən, 2015-ci ilin yanvar-may ayları ərzində ölkə iqtisadiyyatında artım ötən ilin eyni dövrünə nisbətən 5,3 faiz çox olub. Bu ilin ilk beş ayında 21 milyard 344,3 milyon manat həcmində ümumi daxili məhsul (ÜDM) istehsal edilib. ÜDM-in 66,1 faizi (14,1 milyard manat) qeyri-neft sahələrinin payına düşüb. May ayında iqtisadiyyatın qeyri-neft sahələrinin ÜDM istehsalında xüsusi çəkisi 7,6 faiz təşkil etməklə əvvəlki aylarla müqayisədə yüksəlib.

2015-ci ilin yanvar-may aylarında qeyri-neft ÜDM artımı 2014-cü ilin eyni dövrü ilə müqayisədə 11,4 faiz bənd çox olub. Beş ay ərzində qeyri-neft sektorunun bütün bölmələrində artım qeydə alınıb. Kənd təsərrüfatı, rabitə və İKT, turizm, xidmət, emal sahələrində 4%-dən çox artım əldə olunub. Ötən ilin analoji dövrü ilə müqayisədə aqrar sahədə daha çox canlanma müşahidə edilir. Kənd təsərrüfatının ümumi daxili məhsulu 4,1 faiz çox olub ki, bu da ötən ilə nisbətən 2 faizə yaxın artım deməkdir.




2015-ci ilin yanvar-may aylarında qeyri-neft sektoruna yönəldilən investisiyaların həcmində də artım qeydə alınıb. Beş ayda Azərbaycan iqtisadiyyatına kapital qoyuluşları 6 milyard 416,3 mln. manat təşkil edib ki, onun da 57%-i, yəni 3 milyard 657,5 milyon manatı qeyri-neft sahələrinə yönəldilib. Sumqayıt Kimya Sənaye Parkının genişləndirilməsi, Balaxanı Sənaye Parkının, Mingəçevir və Gəncə sənaye parklarının və sənaye məhəllələrinin, biznes-inkubatorların yaradılması istiqamətində işlərin davam etdirilməsi, Polad istehsalı kompleksinin və maşınqayırma sənayesində investisiya layihələrinin həyata keçirilməsi, regionlarda sənaye məhəllələrinin və biznes-inkubatorların təşkili, aqrar-sənaye, emal, yeyinti və yüngül sənaye müəssisələrinin, kənd təsərrüfatı məhsullarının tədarük və emal müəssisələrinin, logistik mərkəzlərin və «fermer mağazaları»nın, «yaşıl market» komplekslərinin, rabitə, informasiya-kommunikasiya texnologiyalarının, turizm, nəqliyyat və sosial infrastrukturun yaradılması və yenidən qurulması qeyri-neft investisiyalarının əsasını təşkil edir. «Dövlət investisiya Proqramı» çərçivəsində infrastruktur layihələrinin icrası, sosial obyektlərin təmir-tikintisi də qeyri-neft investisiyalarına daxildir.

Qeyri-neft sektoruna investisiya qoyuluşlarında xarici sərmayələr 1,6 milyard dolları ötüb. Bu göstəricinin artma ehtimalı böyükdür, çünki investorlarla bərabər, nüfuzlu maliyyə institutları da sərmayə qoyuluşu barədə hökumət səviyyəsində razılaşma əldə edib və müxtəlif sazişlər imzalanıb. Təkcə Asiya İnkişaf Bankı 2015-2016-cı illərdə Azərbaycanda qeyri-neft sektoruna 1,2 milyard dollar sərmayə qoymağı planlaşdırır.

Qeyri-neft sektorunun inkişafına müsbət təsir edən əsas amillərdən biri də səmərəli vergi siyasətinin həyata keçirilməsidir.

Bu ilin ilk beş ayında Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə ödənilmiş vəsaitlərin strukturunda qeyri-neft-qaz sahələri üzrə mühüm artım baş verib. 2015-ci ilin yanvar-may aylarında Vergilər Nazirliyinin xətti ilə qeyri-neft-qaz sektorundan dövlət büdcəsinə vergi daxilolmaları ötən ilin analoji dövrü ilə müqayisədə 11% və ya 1 milyard 905,879 milyon manat artıb. Ümumilikdə, ötən 5 ayda nazirliyin xətti ilə vergi və rüsum yığımı 2 milyard 848 milyon 882,7 min manat təşkil edib ki, bu da bütün büdcə daxilolmalarının 66,9%-i deməkdir.

*2015-ci ilin yanvar-may aylarında Vergilər Nazirliyinin xətti ilə qeyri-neft-qaz sektorundan dövlət büdcəsinə vergi daxilolmaları ötən ilin analoji dövrü ilə müqayisədə 11%, başqa sözlə, 1 milyard 905,879 milyon manat artıb*

Qeyri-neft sektoru üzrə daxilolmaların xüsusi çəkisinin çoxalması neftdənkənar sahələrin inkişafını, vergitutma bazasının genişləndiyini, vergi daxilolmalarının yığım əmsalının və sənaye-xidmət bölmələrində iqtisadi fəallığın yüksəldiyini, regionlarda yeni müəssisələrin yaradılmasını və onların ödənişlərinin həcminin artdığını göstərir.

Cari ilin ötən 5 ayında Bakıda və regionlarda 50-dən artıq müəssisənin istifadəyə verilməsi, sənaye potensialının artması, xüsusilə də qeyri-neft sənayesinin yüksək inkişafı neftdənkənar sahələrdən daxil olan gəlirlərin artmasına şərait yaradır. Təkcə bu ilin beş ayı ərzində ölkə sənayesinin təsərrüfat subyektləri tərəfindən 10,8 milyard manatlıq məhsul istehsal olunub ki, (3,7% artım) onun da əsas hissəsi sənayenin qeyri-neft sahələrinin payına düşür. Bundan başqa, regionlarda yeni hotel və istirahət kompleksləri, turizm obyektləri, xidmət və istehsal müəssisələrinin yaradılması qeyri-neft sektorundan daxilolmaların həcminin artmasına mühüm təsir göstərir. Bununla paralel olaraq, hazırda regionlarda 500-dən artıq müəssisənin tikintisi davam etdirilir. «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı» çərçivəsində sənaye müəssisələrinin yaradılması sahəsində davamlı olaraq aparılan işlər qarşıdakı aylarda regionlar üzrə milli gəlirin artmasında mühüm rol oynayacaq.

**E.CƏFƏRLİ**

# Birja əqdlərinin həcmi artıb

2015-ci ilin may ayında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) yanında Milli Depozit Mərkəzi (MDM) tərəfindən qeydə alınmış alqı-satqı səhmləri üzrə birja əqdlərinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 11 dəfə artıb. MDM-in məlumatında deyilir ki, hesabat dövründə nominal dəyəri 233,04 milyon manat həcmində olan 311 əqd qeydə alınıb. Ötən ilin may ayında isə əqdlərin sayı çox olsa da (394) dəyəri bundan xeyli az - 20,4 milyon manat təşkil etmişdi.

Birjadankənar əqdlərin həcmi də ötən ilin may ayının analoji göstəricisi ilə müqayisədə 10,6 dəfə artıb. İllik hesabatda əlavə emissiya üzrə əqdlərin həcminin 11,17 dəfə azaldığı göstərilib.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycanda bu ilin yanvar-may aylarında kompüter, elektron və elektrik avadanlığı istehsalının həcmi **55,7 milyon manat** təşkil edib. Dövlət Statistika Komitəsindən bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə kompüter və digər elektron avadanlığının istehsalı **36,5%** azalıb, elektrik avadanlığının istehsalı isə **1,9%** artıb.
- Cari ilin beş ayında ölkədə ictimai iaşə dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə **13,9%** artaraq **372,4 milyon manat** olub. Bunun **41,7%-i** hüquqi şəxs statuslu müəssisələrin, **58,3%-i** isə fərdi sahibkarların payına düşüb.
- 2015-ci ilin yanvar-may aylarında Azərbaycanda toplanmış sığorta haqlarının **150,3 milyon manatı** və ya **72,4%** qeyri-həyat sığortasının payına düşüb. Bu, ötən ilin eyni dövrünə nisbətən **9,7%** artım deməkdir.
- Ötən ay Azərbaycanda ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 2014-cü ilin may ayı ilə müqayisədə azalaraq **115.415-ə** enib. Bu dövrdə ünvanlı dövlət sosial yardımlarının hər ailəyə və hər ailə üzvünə düşən orta aylıq məbləği **15,4%** artmaqla, müvafiq olaraq, **146,78 manata** və **33,67 manata** çatıb.
- Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin may ayında ölkəyə **10,3 milyon dollarlıq** taxıl idxal edilib. 5 aylıq göstərici isə **184,5 milyon dollara** bərabərdir ki, bu da 2014-cü ilin eyni dövrü ilə müqayisədə **49,1%** çoxdur.
- Sahibkarlığa Kömək Milli Fondu tərəfindən bu il ərzində 2700-dən çox sahibkara **88,4 mln. manat** güzəştli kredit verilib ki, bu da ölkədə **6200-dən çox** yeni iş yerinin yaradılmasına imkan verir.

# Daha az zamanda daha çox xidmət...



*Azərbaycanda müasir milli ödəniş sisteminin yaradılması ödənişlərin plastik kartlar vasitəsilə real vaxt rejimində şəffaf, təhlükəsiz, səmərəli reallaşdırılmasına geniş imkanlar açır. Son dövrlərdə əhalinin böyük əksəriyyətinin plastik kartlarla təmin edilməsi nağdsız pul hesablaşmalarının kütləviliyi üçün əlverişli şərait yaradır. Müsahibimiz «GoldenPay» şirkətinin və «Hesab.az» onlayn xidmətlər portalının təsisçisi və rəhbəri Fərid İsmayılzadədir.*

***- Fərid müəllim, Azərbaycanda iri onlayn ödəmə sistemi yaratmaq ideyası nədən qaynaqlandı?***

- Yeddi ildən artıq Azərbaycandan kənarda yaşamışam. Əvvəlcə Türkiyənin Bilkent, sonra ABŞ-ın San Jose State universitetində təhsil almışam. 2006-cı ilin oktyabr ayında Bakıya gələndə şəhərimizdə «Bakutel» sərgisi keçirilirdi. Burada olduğum vaxt ərzində ölkəmizdə internetin istifadəsi ilə yaxından tanış olmaq imkanı əldə etdim. İnkişaf etmiş ölkələrdə internetdən milyardlar qazanıldığı halda, bizdə - Azərbaycanda internet ancaq content və forumlar üçün istifadə olunurdu. Beləcə, internet biznesi qurub həm pul qazanmağın, həm də ölkəmizə bir yeniliyin gətirilməsinin vaxtının çatdığı qənaətinə gəldim.

O vaxt yaşadığım Silikon vadisi İT bizneslərinin, internet üzərindən işgüzar fəaliyyətlərin, yəni Google, Apple, Facebook, HP, Microsoft kimi nəhənglərin məkanı sayılır. İnternet üzərindən biznes bildiyim sahə olduğundan, elektron ticarətlə məşğul olmaq qərarına gəldim. Lakin əvvəlcə internet ödəmə sistemi olmalı idi. «GoldenPay» ideyası da belə yarandı. İnternet ödəmə sistemini qurduq və sonra da insanlarımıza elektron vərdişlər yaratmaq qərarına gəldik. Məhz bu məqsədlə ilk öncə kinoteatr, təyyarə biletləri və ya hər hansı məhsulu satan şirkətləri yox, rabitə, kommunal və s. kimi xidmətləri təklif edən şirkətləri onlayn ödəmələrə cəlb etdik. Axı rabitə, mobil və ya kommunal xidmətlərə ödənişlərimizi hər ay ən azı bir neçə dəfə edirik, amma kinoya və ya təyyarəyə bilet əldə etmək üçün etdiyimiz ödənişi ayda-ildə bir dəfə etsək, böyük şeydir.

«E-hökumət»in özünün formalaşması üçün insanlarda müəyyən vərdişlər olmalıdır. Məncə, «GoldenPay»in ölkəmiz üçün ən böyük xidməti də elə bu vərdişləri yaratmağımız, sərbəst istifadəni təmin etməyimizdir. Bu xidmətlərimizdən istifadə etmiş 170 mindən çox istifadəçi potensial «E-hökumət» xidmətinin istifadəçiləri idilər. Dünyanın hər yerində bu belə olmuşdur.

***- E-xidmətlərdən çəkinməmələri üçün insanlarda etibar və inam olmalıdır. Onlayn ödəmələrin təhlükəsizliyi barədə nə deyə bilərsiniz?***

- E-ödəmələrə etibarsızlığın səbəbi insanların bu sahədə məlumatsızlığıdır. Elektron ödənişlər kifayət qədər təhlükəsizdir. Yalnız tanımadığınız, bilmədiyiniz bir saytda kart informasiyanızı daxil etsəniz, informasiyalarınız oğurlana bilər. Həm «GoldenPay», həm də bazardakı rəqiblərimiz olan «AzeriCard», «Millikart» şirkətləri təhlükəsizliyə zəmanət verir. Kart informasiyası ya bankomatlar yerləşdirilmiş skimer vasitəsilə oğurlanır, ya da bankda çalışan əməkdaşın bankına olan mənfi münasibət zəminində informasiyanı oğurlaması zamanı baş verir. Bəzən isə kart sahibi diqqətsizlik edərək restoranda, kafedə ödəniş zamanı kartı tanımadığı insana verərək, informasiyalarının ələ keçirilməsinə şərait yaradır. Digər hallarda internet üzərindən ödənişin oğurlanması qeyri-mümkündür.

***- «Hesab.az» portalı öz istifadəçilərinə ödənişdə hansı təminatı verir?***

- «Hesab.az»ın birinci təminatı odur ki, ödədiyiniz vəsait ünvanına mütləq çatacaq. Yəni siz bu gün istənilən kommunal ödəniş edərkən ödənişin ani şəkildə tamamlandığının şahidi ola bilərsiniz. Ödəniş uğurlu alınmadıqda, yəni hər hansı texniki problem yarandıqda bizim müştəri xidmətlərimiz 24 saat ərzində bu məsələnin həlli ilə məşğul olur. İnternet ödənişlərin üstünlüyü ondadır ki, heç vaxt heç bir məbləğ itmir. Bizə müraciət olunmasa belə, biz ödənişdə problemi görə bilirik və müştəri bizə xəbər etməsə də ödənişi uğurla ünvanına çatdırırıq.

Bundan əlavə, müştərilərimizə informasiyalarının qorunacağına təminat veririk.

***- Portalda yeni yaradılmış «kartların yadda saxlanılması» funksiyası hansı keyfiyyətlərə malikdir?***

- Məncə, bu, hamının çoxdan gözlədiyi önəmli bir funksiyadır. Bu funksiya istifadəçilərimizin kart informasiyasını hər dəfə sayta daxil etməkdən azad edir, narahatlığın və vaxt itkisinin qarşısını alır. Bunun məntiqi davamı olaraq, tezliklə avtomatik ödənişlər funksiyasını da istifadəyə verə biləcəyik. Məsələn, bəzi ödənişlər - işıq, qaz, su, telefon, kabel televiziyası və s. kimi kommunal ödənişlərdə «Hesab.az» özü sizin yerinizə seçdiyiniz kartlardan ödənişləri edəcək və bu barədə SMS və e-mail vasitəsilə məlumat veriləcək.

Təhlükəsizlik və istifadəçilərin rahatlığı bizim üçün ən prioritet məsələlərdəndir. Kart məlumatlarını yadda saxlamaq funksiyasını əvvəllər də aktivləşdirə bilərdik, lakin təhlükəsizlik məsələsinə görə gözləyirdik. Xatırladım ki, bu yeni xidmət «GoldenPay» şirkətinin «Millikart» prosessinq mərkəzi ilə birgə əməkdaşlığı nəticəsində həyata keçirilib. «Millikart» Azərbaycanda PCI DSS təhlükəsizlik standartlarına cavab verən prosessinq mərkəzi olduğundan, onun vasitəsilə bu məsələni yüksək səviyyədə həll etdikdən sonra istifadəçilərimiz əminliklə plastik kartlarını yaddaşda saxlayıb istənilən vaxt ödəniş edə biləcəklər.

***- «GoldenPay» ödəniş sistemi ölkədənkənar bazarlara da çıxarılırmı?***

- Bu gün Azərbaycan bazarında bu sahə üzrə daha yeddi portal yaranıb və bu proses davam etməkdədir. Buna baxmayaraq, əldə etdiyimiz üstünlüklər, mükəmməllik nəticəsində liderliyimizi qoruyub saxlaya bilirik. Təbii ki, rəqabət zamanı bəzi ödəniş portalları tab gətirməyib sıradan çıxacaqlar və ya yeniləri yaranacaq. Biz isə artıq Azərbaycan bazarında kənara çıxmaq üçün kifayət qədər təcrübə qazana bilmişik. Bu yaxınlarda Gürcüstan və Bosniya və Herseqovina bazarları ilə tanış olmaq imkanı əldə etdim. Bu iki bazara daxil olmaq bu il üçün nəzərdə tutulub. Hazırda araşdırma apardığımız daha 10-15 ölkə var. Onlarda əhali plastik kartlardan istifadə edir, amma ödənişləri müvafiq köşklərdə və ya poçtda aparırlar. Bu, bizim üçün maraqlıdır. Çalışırıq ki, insanları nağd ödənişlərdən çəkindirək və onlar oturduqları yerdə telefon, internet vasitəsilə ödənişlərini edə bilsinlər. Başqa ölkələrdə də «GoldenPay» yarada bilsək, məncə, bunun biznes tərəfi ilə yanaşı, qürurverici cəhətləri də olacaq: dünyada Azərbaycan təcrübəsi yayılacaq.

***- «GoldenPay» şirkətinin ad günü yaxınlaşır... Bununla bağlı və sonrakı illər üçün inkişaf strategiyanız haqqında nə deyə bilərsiniz?***

- İyulun 13-də «GoldenPay»in səkkiz yaşı tamam olur. Qazandıqlarımız, əldə etdiklərimiz göz qabağındadır. Növbəti illərdə «Hesab.az» vasitəsilə göstərilən xidmətlərin sayını artırmağı nəzərdə tutmuşuq. Yaxın zamanlarda xarici və daxili sistemlərə inteqrasiya nəticəsində fəaliyyətimizi genişləndirmək istəyirik. Müxtəlif tədbirlərə, idman oyunlarına, konsertlərə elektron biletlər almaq, təyyarə və hotellərə yer bron etmək kimi yeni imkanları istifadəçilərimizə təqdim edəcəyik.

«Hesab.az»da «Ebay» tipli elektron hərrac və bazar yaratmaq barədə də düşünürük. Hamının evində köhnə, lazımsız, istifadəyə yararsız, dəbdən düşmüş əşyalar var. İstifadəçilərimizin onları rahatca onlayn satışa çıxara bilməsini təmin etmək istəyirik.

Azərbaycanda ilk dəfə olaraq ilkin kütləvi satışla (IPO) səhmlərimizin satışını nəzərdə tutmuşuq. Gələcəyə baxışımız üç-beş il sonra bir neçə ölkədə əhaliyə internet üzərindən çoxlu xidmətlər göstərən beynəlxalq bir şirkət olmaqdır.

**Fəxriyyə İKRAMQIZI**

# Mobil nömrə satışına nəzarət gücləndirilir



*Nazirlər Kabinetinin qərarına əsasən, bundan sonra başqa adamın adına olan mobil nömrəni istifadə etmək mümkün olmayacaq. Qərar, əslində, vətəndaşların özlərinə faydalıdır.*

Üç ay ərzində qüvvəyə minəcək yeni qaydalara görə, abunəçi öz adına olan sim-kartı başqa şəxsə istifadə etmək üçün verə bilməz. Bu, qəti qadağandır. Həmçinin, vətəndaş öz sim-kartını və telefon aparatını itiribsə, mütləq polisə xəbər verməlidir. Telefon və ya nömrəni alarkən vətəndaşın imzaladığı müqavilədə bu hal mütləq qeyd olunmalıdır. Bundan sonra heç kəs müqaviləsiz nömrə və ya telefon ala bilməyəcək. Hətta bu müqaviləyə şəxsiyyət vəsiqəsinin surətinin əlavə olunması məcburidir.

Rəsmi distribütor olan dükanlar bu qaydalara indidən əməl etdiklərini deyirlər. Kiçik satış mərkəzlərində isə əksər hallarda nömrələr başqa adlara rəsmiləşdirilir. Satış menecerı Natiq Novruzovun sözlərinə görə, bu qaydaların sərtləşdirilməsi, ilk növbədə, vətəndaşların mənafeyi və onların təhlükəsizliyi üçündür: «Çünki vətəndaş öz telefon nömrəsini başqasına verərsə, sonradan nömrəni işlədən şəxsin hansısa cinayət əməlinə görə sim-kartın əsl sahibi də istintaqa cəlb olunur».

Əgər nömrə və telefon itirilərsə dərhal polisə məlumat vermək tələbi də məhz abunəçinin öz xeyrinədir. Digər tərəfdən, bu qaydalar bahalı nömrə alverçilərinin «fəaliyyətini» məhdudlaşdıracaq. Çünki bəzi işbazlar yaxşı səslənən nömrələri alaraq sonradan həttа fantastik qiymətə başqalarına satırlar. İndi isə bu ticarət mümkün olmayacaq.








Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Mənfəət vergisinin şərti üsulla hesablanması

Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmağa, tətbiq olunan uçot metodundan asılı olaraq gəlirlərini və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməyə borcludur.

Vergi ödəyicisinin istifadə etdiyi uçot metodunda xərclərin və daxilolmaların müddətləri və uçotu qaydasına dair tələblərin hamısı nəzərə alınmalı, bütün əməliyyatların başlanğıcını, gedişini və qurtarmasını müəyyənləşdirməyə imkan yaranmalıdır. Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisi vergi ili ərzində eyni metodu tətbiq etmək şərti ilə vergilərin uçotunu kassa metodu və ya hesablamalar metodu ilə apara bilər.

Vergi ödəyicisinin istifadə etdiyi uçot metodu dəyişdirilərkən verginin məbləğinə təsir göstərən mühasibat əməliyyatlarına düzəlişlər uçot metodunun dəyişdirildiyi ildə aparılmalıdır ki, bu əməliyyatlardan heç biri nəzərdən qaçırılmasın və ya iki dəfə hesaba alınmasın.

Vergi ödəyiciləri tərəfindən gəlir və xərclərin uçotu qanunvericiliklə müəyyən olunmuş qaydada aparılmadıqda vergiyə cəlb edilən mənfəətin (gəlirin) məbləğini birbaşa müəyyənləşdirmək mümkün olmur. Bu cür hallar üçün Vergi Məcəlləsinin 83.9-cu maddəsində qeyd olunur ki, vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı halda, həmin mənfəət (gəlir) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalar əsasında hesablanır. Bu maddəyə uyğun olaraq, Nazirlər Kabinetinin 1 mart 2001-ci il tarixli 55 nömrəli qərarı ilə «Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması qaydaları» təsdiq edilmişdir.

Həmin qaydalarda mənfəətin (gəlirin) şərti üsulla hesablanmasının iki halı nəzərdə tutulmuşdur. Birinci hal xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin əldə etdiyi mənfəətin (gəlirin), ikinci hal xarici hüquqi şəxs olmayan digər vergi ödəyicilərinin mənfəətinin (gəlirinin) şərti rentabellik norması əsasında hesablanması ilə bağlıdır.

Qaydalara əsasən, xarici hüquqi şəxsin daimi nümayəndəliyinin mənfəətini (gəlirini) birbaşa müəyyən etmək mümkün olmadığı halda, müəyyən edilmiş üç meyarın birindən (satışdan gəlir, fəaliyyətlə əlaqədar olan xərc, işçilərin sayı) istifadə olunur. İstifadə edilən meyar vergi orqanı ilə razılaşdırılmaqla vergi ödəyicisi tərəfindən seçilir.

Gəlir meyarından isə xərclərin uçotu aparılmadıqda və ödəyicinin gəliri barədə məlumat olduqda istifadə edilir. Bu zaman vergi ödəyicisinin mənfəəti (gəliri) şərti rentabellik norması 20 faiz qəbul edilməklə aşağıdakı qaydada hesablanır:

Mənfəət = (Gəlir / (100 + R)) * R

Burada, R - şərti rentabellik normasıdır.

Xərc meyarı - gəliri müəyyən etmək mümkün olmadıqda və xərc barədə məlumat olduqda tətbiq edilir. Bu zaman mənfəət (gəlir) aşağıdakı düstur vasitəsilə müəyyən edilir:

Mənfəət = (xərc / 100) * R

İşçilərin say meyarından vergi ödəyicisinin həm gəlirini, həm də xərcini müəyyən etmək qeyri-mümkün olduqda istifadə edilir:

Mənfəət = M1 * N1 / N2

Burada: M1 - xarici hüquqi şəxsin məcmu mənfəəti; N1 - xarici hüquqi şəxsin işçilərinin ümumi sayı; N2 - xarici hüquqi şəxsin daimi nümayəndəliyinin işçilərinin sayıdır.

Eyni zamanda, xarici hüquqi şəxsin Azərbaycan Respublikasında əldə etdiyi mənfəətin yalnız bir hissəsi vergiyə cəlb olunduğu halda, vergi orqanı vergiyə cəlb olunan mənfəəti müəyyən etmək üçün aşağıdakı meyarlardan istifadə edə bilər:

- xarici hüquqi şəxsin Azərbaycan Respublikasında vergiyə cəlb olunan fəaliyyətin həyata keçirilməsi üçün sərf etdiyi iş vaxtının nümayəndəliyin ümumi iş vaxtında xüsusi çəkisi;
- xarici hüquqi şəxsin Azərbaycan Respublikasında vergiyə cəlb olunan fəaliyyətin həyata keçirilməsinə çəkdiyi xərclərinin, onun Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi fəaliyyətlə bağlı ümumi xərclərində xüsusi çəkisi;
- xarici hüquqi şəxsin Azərbaycan Respublikasında vergiyə cəlb olunan fəaliyyətin həyata keçirilməsindən əldə etdiyi gəlirlərin onun Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsi ilə fəaliyyətindən əldə olunan ümumi gəlirlərində xüsusi çəkisi.

Qaydalarda göstərilir ki, xarici hüquqi şəxs olmayan digər vergi ödəyiciləri tərəfindən gəlirin və yaxud xərclərin uçotu aparılmadıqda, onların mənfəətini (gəlirini) birbaşa müəyyən etmək mümkün olmadığı təqdirdə, vergi orqanları tərəfindən yuxarıda göstərilən gəlir (xərclərin uçotu aparılmadıqda) və ya xərc (gəlirin uçotu aparılmadıqda) meyarından istifadə oluna bilər.

Vergi Məcəlləsinin 67.1-ci maddəsi ilə də müəyyən olunmuşdur ki, Məcəllənin 37.4-cü və 50.1.1-ci maddələrində göstərilən hallarda, habelə səyyar vergi yoxlamasının aparılması zamanı sənədlər təqdim edilmədikdə, mühasibat uçotunu aparmadıqda və ya mühasibat uçotunu müəyyən edilmiş qaydada aparmadıqda, mühasibat və hesabat sənədləri məhv olunduqda (itirildikdə), vergi ödəyicisinin gəlirlərini və ya xərclərini müəyyən etmək mümkün olmadıqda mənfəət (gəlir) vergisi bu Məcəllənin 83.9-cu maddəsinə əsasən «Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması qaydaları»na uyğun olaraq vergi orqanı tərəfindən hesablana bilər.

Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# İstifadəsiz torpaq üçün vergi

***Mülkiyyətimdə Qax rayonu ərazində kənd təsərrüfatı təyinatlı torpaq sahəsi var. İstifadə etmədiyim həmin torpağa görə vergi ödəmək öhdəliyim varmı?***

Vergi Məcəlləsinin 204-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir. Həmin Məcəllənin 205-ci maddəsinə müvafiq olaraq, fiziki şəxslərin və müəssisələrin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır.

Vergi Məcəlləsinin 203.1-ci maddəsi ilə müəyyən edilmişdir ki, torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanır. Göründüyü kimi, məcəllədə torpaq vergisinin ödənilməsi şəxsin mülkiyyətində və ya istifadəsində olan torpaqların istifadə edilib-edilməməsi ilə şərtləndirilmir.

Əlavə olaraq onu da bildiririk ki, Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 12-ci maddəsinə əsasən, torpaqların istifadəsinin ərazi planlaşdırılmasında kənd təsərrüfatı ehtiyacları üçün nəzərdə tutulmuş torpaq sahələri kənd təsərrüfatı təyinatlı torpaqlar sayılır. Kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə kənd təsərrüfatı yerləri (uqodiyaları), meşə zolaqlarının, təsərrüfatdaxili yolların, kommunikasiyaların, bataqlıqların, sututarların, kənd təsərrüfatının aparılması üçün vacib olan tikili və qurğuların altında olan torpaqlar daxildir. Kənd təsərrüfatı yerlərinə (uqodiyalarına) əkin, çoxillik əkmələrin altında olan torpaqlar, dincə qoyulmuş torpaqlar, biçənəklər, örüşlər və otlaqlar aid edilir.

Vergi Məcəlləsinin 206-cı maddəsinə əsasən, torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün 0,06 manat müəyyən edilir və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balları («Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları» Nazirlər Kabinetinin 2000-ci il 29 dekabr tarixli 230 nömrəli qərarı ilə təsdiq edilmişdir) müəyyənləşdirilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Naxçıvanda POS-terminallardan istifadə genişlənir

*Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bankların və müvafiq qurumların birgə həyata keçirdiyi tədbirlər sayəsində yeni kart məhsullarından və POS-terminallardan istifadə genişlənməkdədir.*

Mərkəzi Bankın Naxçıvan İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Elçin Əliyev «marja.az» saytına açıqlamasında bildirib ki, quraşdırılmış bankomat və POS-terminal şəbəkəsi əhalinin rahatlığını təmin etməklə yanaşı, nağdsız ödəniş sahəsində iqtisadi mədəniyyətin formalaşmasına və ümumilikdə iqtisadi artımın davamlı xarakter almasına öz töhfəsini verməkdədir.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən indiyədək ticarət və xidmət müəssisələrində, restoranlarda, otellərdə və digər iaşə obyektlərində ümumilikdə 983 ədəd POS-terminal quraşdırılıb: Naxçıvan şəhərində 479 ədəd, rayonlarda isə 504 ədəd. Hazırda muxtar respublikada ödəniş kartlarının sayı 212 min 214 ədədə çatdırılıb. 54-ü Naxçıvan şəhərində, 41-i isə rayon mərkəzlərində və iri kəndlərdə olmaqla, ümumilikdə 95 bankomat fəaliyyət göstərir. Bundan əlavə, iki yeni quraşdırılmış ödəniş qurğuları (Million) vasitəsilə də vətəndaşlara müasir bank xidmətləri göstərilir.

Vətəndaşların kommunal xərclərinin ödənişlərinin rahat şəkildə təmin edilməsi məqsədilə 1 iyun 2015-ci il tarixə «Naxçıvanpoçt» Məhdud Məsuliyyətli Cəmiyyətində 119 ədəd, «Naxçıvanqaz» İstehsalat Birliyində 40 ədəd, Naxçıvan Dövlət Energetika Agentliyində 21 ədəd, «Naxçıvan su-kanalizasiya» ASC-də isə 5 ədəd POS-terminal quraşdırılıb. Bundan əlavə, kommunal xidmət haqlarının internet üzərindən elektron ödəniş sistemləri vasitəsilə ödənilməsi imkanları da yaradılıb. Nağdsız ödənişlərin genişləndirilməsi məqsədilə vətəndaşlara ödəniş kartları vasitəsilə vergi və rüsumları, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və yerli şöbələrinə sosial sığorta haqlarını nağdsız şəkildə, həm müvafiq idarələrdə quraşdırılmış POS-terminal, həm də internet portalları vasitəsilə ödəmə imkanları yaradılır. Mobil və stasionar rabitə üzrə xərclər, qaz, enerji kimi kommunal xərclər internet üzərindən elektron şəkildə ödənilir.

2015-ci ilin əvvəlindən iyunun 1-dək muxtar respublika üzrə POS-terminal və internet üzərindən aparılmış nağdsız əməliyyatların həcmi 1 milyon 233 min 600 manat təşkil edib. Halbuki bu göstərici 2014-cü ilin müvafiq dövründə 802 min 625 manat təşkil edirdi. Hazırda nağdsız ödəniş infrastrukturunun əhatə dairəsinin genişləndirilməsi ilə bağlı tədbirlər davam etdirilir. Gələcəkdə nəqliyyat sektorunda da gediş haqlarının elektron ödəniş kartları vasitəsilə ödənilməsi nəzərdə tutulur.



*Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən indiyədək ticarət və xidmət müəssisələrində ümumilikdə 983 ədəd POS-terminal quraşdırılıb*

# Dövlət qurumlarının informasiya sistemlərinin monitorinqi keçiriləcək

*Bu ilin sentyabr ayından «Elektron hökumət» portalının operatoru tərəfindən dövlət orqanlarının mülkiyyətində olan informasiya sistemlərinin növbəti monitorinqi keçiriləcək.*

Bununla əlaqədar Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən dövlət qurumlarının mülkiyyətində olan informasiya sistemlərindən səmərəli istifadənin müəyyən edilməsi üçün anket sorğusu hazırlanaraq müvafiq qurumlara göndərilmişdir.

*Vergilər Nazirliyi də daxil olmaqla bir sıra dövlət qurumları tərəfindən informasiya sistemlərindən səmərəli istifadənin müəyyən edilməsi üçün tərtib olunmuş anket sorğusu cavablandırılıb*

Bu addımın atılması müvafiq məlumatların əvvəlcədən əldə edilməsi məqsədi daşıyır. Təşkil olunan sorğu, əsasən, aidiyyəti qurumların tətbiq etdiyi elektron idarəçilik, mülkiyyətindəki informasiya sistemləri, göstərdiyi elektron xidmətlər, istifadəçilərlə əks-əlaqənin yaradılması, sərəncamında olan informasiya sistemləri ilə informasiya mübadiləsi və digər istiqamətlər üzrə fəaliyyətini əhatə edir.

MHM-in məlumatına görə, artıq 11 dövlət qurumu - Vergilər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, Müəllif Hüquqları Agentliyi, Dövlət Statistika Komitəsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Fövqəladə Hallar Nazirliyi, Gənclər və İdman Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən informasiya sistemlərindən səmərəli istifadənin müəyyən edilməsi üçün tərtib olunmuş anket sorğusu cavablandırılıb. Sorğuların cavablandırılmasından sonra qurumlarda monitorinqlərin keçirilməsinin daha operativ və səmərəli olacağı gözlənilir. Monitorinq zamanı, qanunvericiliyə uyğun olaraq, əsas diqqət bu məsələlərə yönəldiləcək:

- ♦ informasiya ehtiyatlarının FİN-ə (fərdi identifikasiya nömrəsi) uyğunluğu;
- ♦ fərdi məlumatların mühafizəsinin müəyyən olunmuş tələblər çərçivəsində təşkili;
- ♦ informasiya ehtiyatlarında məlumatlar bazasının strukturu ilə tanışlıq;
- ♦ bazalararası relativlik prinsiplərinin yoxlanılması, fərdi məlumatların toplanılmasının və işlənilməsinin mülkiyyətçi və ya operator tərəfindən bəyan edilmiş məqsədlərə uyğunluğu;
- ♦ digər əlaqəli informasiya sistemləri ilə informasiya mübadiləsi üsulları və kateqoriyalarının monitorinqi;
- ♦ informasiya sistemlərinin və ehtiyatlarının portala qoşulması və onların tələblərə uyğunluğunun yoxlanılması;
- ♦ informasiya sisteminin və ehtiyatlarının «Elektron hökumət»portalı ilə əlaqəli olan komponentlərinin tələblərə uyğunluğu;
- ♦ informasiya sisteminin SOAP (Simple Object Access Protocol) vasitəsilə sorğularla işləmə imkanı;
- ♦ dövlət orqanlarının informasiya sistemlərinin və ehtiyatlarının qarşılıqlı inteqrasiyasının təmin edilməsi;
- ♦ dövlət orqanları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılma imkanlarının araşdırılması.

Bildirilib ki, vaxtaşırı keçirilən monitorinqlər dövlət orqanlarının mülkiyyətində olan informasiya sistemlərində (İS) fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsinin «Fərdi məlumatlar haqqında» Qanunun tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının İS-lərin bəyan olunmuş məqsədlərinə, «İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin «Elektron hökumət» portalına qoşulması üçün texniki tələblər»ə uyğunluğunun yoxlanılmasına və aşkar olunan uyğunsuzluqların aradan qaldırılmasına xidmət edir.

Qeyd edək ki, sorğuda iştirak etmək üçün www.e-gov.az/sorgu linkinə e-imza vasitəsilə daxil olaraq «Dövlət təşkilatlarında elektron xidmətlərin səmərəliliyini qiymətləndirən tədqiqat sorğusu»nda bəndlər üzrə müvafiq məlumatları doldurub təsdiq etməklə elektron şəkildə göndərmək və ya həmin linkdən anket formasını çap edib, məlumatları doldurub təsdiq etməklə kağız formatda MHM-ə göndərmək lazımdır.

**AYTƏN**

# Malların keyfiyyətinə və təhlükəsizliyinə təminat

Mövcud qanunvericiliyə əsasən, ölkə ərazisində istehsal olunan, habelə ölkədən kənara ixrac edilən malların üzərində istehsal və ya ticarət markası, əmtəə nişanı və ya coğrafi göstərici olmalıdır. Mal və məhsulların üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları Azərbaycan dilində izahat vərəqələri ilə müşayiət olunmalıdır. Mallar qəbul edilərkən hər bir sahibkar onların düzgün etiketləndiyinə diqqət yetirməlidir.

*Mallar istehlakçı tərəfindən istifadə olunarkən, saxlanılarkən və ya daşınarkən onun həyatına, sağlamlığına, əmlakına, eləcə də ətraf mühitə heç bir şəkildə ziyan vurmamalıdır*



İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti bu məsələlərə istehlakçıların xüsusi diqqət yetirmələrini tövsiyə edir. Bu, istehlakçı hüquqlarının qorunması, istehlakçıların aldadılması hallarının qarşısının alınması üçün əhəmiyyətlidir. Çünki malların düzgün markalanması onların keyfiyyətinə və təhlükəsizliyinə əmin olmaq baxımından zəruridir. Dövlət Xidmətinin məlumatına görə, markalanma istehlakçılara mal və onun xüsusiyyətləri haqqında məlumatın çatdırılması imkanı yaradır. Başqa sözlə, markalanma məhsulun, prosesin, xidmətin xarakteri, tərkibi, xüsusiyyətləri haqqında kompleks məlumatları əks etdirən müşayiətedici sənəd funksiyasını daşıyır. Etiket, yarlıq, emblem, nişan, simvol və s. markalanmanın formaları və hər hansı malın markalanması standart və texniki şərtlər vasitəsilə normallaşdırılır.

Qeyd edilir ki, istehlakçı mal alarkən onun etiketində bunların olmasına diqqət yetirməlidir:

- məhsulun adı;
- istehsalçının adı, ünvanı və əlaqə məlumatları;
- məhsulun mənşəyi və istehsal olunduğu ölkə;
- istehsalçının ticarət nişanı;
- malın istehsal tarixi, saxlanma müddəti;
- təminat öhdəlikləri,
- sağlamlıq üçün zəruri maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı;
- məhsulun istehlak xüsusiyyətləri;
- malın işlədilməsi və təhlükəsiz istifadə edilməsi üsulları və qaydaları;
- məhsulun hazırlanmasında istinad olunan texniki sənəd və sertifikatlaşdırma haqqında məlumatlar.

Bu məlumatlardan başqa, istehsalçı tərəfindən daha geniş məlumatlar da verilə bilər. Malın markalanması istehlakçı üçün aydın, kifayətləndirici və dəqiq məlumatları əks etdirməlidir. Markalanma qapalı, oxunmayan, digər mətn və qrafik təsvirlərlə örtülmüş ola bilməz.

Mallar istehlakçı tərəfindən istifadə olunarkən, saxlanılarkən və ya daşınarkən onun həyatına, sağlamlığına, əmlakına, eləcə də ətraf mühitə heç bir şəkildə ziyan vurmamalıdır. Məcburi sertifikatlaşdırılmalı olan, lakin sertifikatlaşdırılmamış malların satışı, həmçinin yararlılıq müddəti ötmüş malların satışı qadağandır.

Dövlət Xidmətindən bildirilib ki, bir sıra hallarda markalanmada beynəlxalq təsnifat sisteminə uyğun olan şərti işarələrdən, nişanlardan istifadə edilir. Bu nişanlar əsasən dörd qrupa ayrılır:

- malların ekoloji təhlükəsizliyinə təminat verən;
- təhlükəsizliyin və keyfiyyətin müvafiq standartlara uyğunluğunu təsdiq edən;
- malların tərkibi haqqında məlumat bildirən;
- istifadə qaydaları haqqında məlumat verən.

Məhz bu nişanlar istehlakçıya mal çoxluğu şəraitində düzgün seçim etməyə, mallardan təyinatı üzrə istifadəyə kömək göstərir.

Yeyinti məhsullarına «müalicəvi», «pəhriz» və onlara bərabər tutulan adlar yalnız müvafiq icra hakimiyyəti orqanlarının icazəsi əsasında verilir. İstehlakçılar bu məsələlərə diqqətlə yanaşmalıdırlar. Malların etiketində qeyd olunan məlumatlar istehlakçılara mal haqqında ən zəruri və vacib informasiyanı almağa imkan yaratmalıdır.

Məhsullar istehsalçı tərəfindən qablaşdırma materiallarının üzərində və ya etiketlərdə göstərilən şəraitdə saxlanmalıdır. Yalnız bu şərtlərə əməl olunduqda istehsalçı məhsulun təhlükəsizliyinə və keyfiyyət göstəricisinə zəmanət verə bilər. Satıcı malın xüsusiyyətləri ilə bağlı yazılı informasiyanı istehlakçıya verməkdən başqa, istehlakçının tələbi ilə daha geniş və əlavə informasiyanı şifahi şəkildə izah etməyi bacarmalı, beynəlxalq şərti işarələrin mənasını bilməlidir.

Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti istehlakçılara müvafiq qaydada etiketlənməmiş malları almaqdan çəkinməyi və bu cür mallara rast gəldikdə xidmətə məlumat verməyi tövsiyə edir.

**A.NƏBİYEVA**

# Yeni stimullaşdırıcı layihələr planlaşdırılır

*«Visa International» beynəlxalq ödəniş sistemi vasitəsilə Azərbaycanda nağdsız ödənişlər bazarının inkişaf etdirilməsi üçün müxtəlif layihələr həyata keçirmək planlaşdırılır.*

«Visa» şirkətinin Azərbaycanda biznesin inkişafı üzrə meneceri Nurlan Hacıyevin sözlərinə görə, «Visa International» nağdsız dövriyyənin həcminin artırılmasının ən səmərəli yollarından biri kimi plastik kartlarla alış-veriş zamanı stimullaşdırıcı kampaniyaların keçirilməsini məqsədəuyğun hesab edir və yeni kampaniyalar keçirməyi nəzərdə tutur.



İndiyədək Mərkəzi Bankın (MB) dəstəyi ilə «Visa ilə həyat rahatdır», «Visa kartla ödə, təminatlı hədiyyə qazan» devizi altında keçirilən stimullaşdırıcı kampaniyalar insanların nağdsız alış-verişə həvəsləndirilməsi baxımından faydalı olub. Azərbaycanın 30 banka «Visa» ilə birgə yeni kampaniyalara qoşulmaq niyyətindədir. Layihə çərçivəsində e-pulun idarə olunması və kartlardan istifadə ilə bağlı təşviqedici tədbirlər təşkil olunacaq.

N. Hacıyevin fikrincə, müasir ödəniş alətlərinin tətbiqi ilə bağlı qanunvericilikdə bəzi dəyişikliklərin edilməsinə zərurət var. Kart sahiblərinin hüquqlarının daha etibarlı qorunması, kart biznesinin təhlükəsizliyinin möhkəmləndirilməsi üçün güclü mexanizm yaradılmalıdır. Qanun təkmilləşdirilərkən ayrı-ayrı ölkələrin bu sahədəki təcrübəsi də nəzərə alınmalıdır.

«Visa»nın nümayəndəsi respublikamızda e-ödənişlərlə bağlı bir şirkət yaratmaq planı barədə də danışıb. Bu şirkət e-ticarətin genişlənməsində aktiv rol oynayacaq.

Beynəlxalq kart təşkilatları ilə birgə reallaşdırılan layihələrin nağdsız bazarın inkişafına töhfə verdiyini bildirən MB-nin sədr müavini Alim Quliyev bildirib ki, belə layihələr nağdsız vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapı, daşınması, saxlanması və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında əhəmiyyətli rol oynayır. Bu istiqamətdə «Visa»dan başqa, digər kart təşkilatları ilə də birgə əməkdaşlığın artırılması diqqət mərkəzindədir. Bu günlərdə «China UnionPay» beynəlxalq kart təşkilatı ilə ölkəmizin kart bazarında təqdim olunan yeniliklər, ödəniş kartları ilə əməliyyatlar zamanı tətbiq edilən tarif siyasəti, innovativ ödəniş məhsulları, banklarla qarşılıqlı əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb. Çinin dünya kart sistemində ən nəhəng ödəniş maliyyə şəbəkəsi olan «UnionPay»la əldə olunmuş razılığa əsasən, ödəniş kartları bazarında gələcək fəaliyyət istiqamətlərinə dair layihələrin hazırlanması, Azərbaycan bankları və prosessinq mərkəzlərinin birgə yeni ödəniş kartlarının buraxılışı nəzərdə tutulur.

MB rəsmisi qeyd edib ki, davam etdirilməsi nəzərdə tutulan layihələrin icrası yaxın müddətdə ölkənin nağdsız hesablaşmalar üzrə göstəricilərinin yüksək səviyyəyə çatdırılmasına imkan verəcək.

**E.CƏFƏRLİ**

# Əməyin mühafizəsinə dair seminar keçirilib

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) Avropa İttifaqının Əməyin Mühafizəsi Agentliyi ilə birgə «Tikintidə və iqtisadiyyatın digər sahələrində əməyin mühafizəsi» mövzusunda seminar təşkil edib.*

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, beynəlxalq ekspertlərin və sosial partnyorların iştirak etdiyi tədbiri giriş sözü ilə açan ƏƏSMN yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Fuad Əlizadə iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasının günümüzün vacib məsələlərindən olduğunu vurğulayıb: «Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, hər il dünyada istehsalatla əlaqəli 339 milyon bədbəxt hadisə baş verir və nəticədə 160 milyon nəfər xəsarət alır və ya peşə xəstəliyinə tutulur, 2 milyon 340 min nəfərdən çox insan həlak olur. Məhz bu səbəbdən, dünya iqtisadiyyatı istehsalatda baş vermiş bədbəxt hadisə və peşə xəstəliyi ilə bağlı 2,8 trilyon ABŞ dolları və ya dünyada istehsal olunan ÜDM-in 4%-i həcmində itkiyə məruz qalır».

F.Əlizadə ölkəmizdə əməyin mühafizəsi sahəsində dövlət siyasətinin daim gücləndiyini diqqətə çatdırıb: «Bu sahədə təsirli inzibati tədbirlərlə yanaşı, təbliğat-maarifləndirmə işləri də aparılır. Ötən ilin sentyabrından respublikada «Təhlükəsiz iş həftəsi», «Təhlükəsiz iş ongünlüyü», «Təhlükəsiz iş aylığı» kimi tədbirlər keçirilib. Bütün bu işlərin müsbət nəticəsi kimi, Azərbaycanda istehsalat qəzalarının, həmin qəzalar zamanı zərərçəkən şəxslərin sayı getdikcə azalır. Məsələn, 2015-ci ilin yanvar-may aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə istehsalatla əlaqəli bədbəxt hadisələrin sayı 44 faiz, həmin hadisələr nəticəsində həlak olanların sayı 47,2 faiz, xəsarət alanların sayı isə 2,1 dəfə azalıb. 2014-cü ilin 5 ayında qrup halında istehsalatla əlaqəli bədbəxt hadisələrin sayı 15 olduğu halda, bu ilin yanvar-may aylarında bu cür hadisələr baş verməyib».

İş yerlərində əməyin təhlükəsizliyi üzrə önləyici tədbirlərin, peşə risklərinin düzgün qiymətləndirilməsinin, əməyin mühafizəsində sosial tərəfdaşlarla fəaliyyətin səmərəli təşkilinin əhəmiyyəti xüsusi vurğulanıb. Bu sahələrdə mütərəqqi dünya təcrübəsinin öyrənilməsinə və tətbiqinə xüsusi önəm verildiyi bildirilib: «Avropa İttifaqının Əməyin Mühafizəsi Agentliyi ilə uğurlu əməkdaşlıq çərçivəsində keçirilən bu seminar da əməyin mühafizəsində innovativ iş üsulları, həmçinin istehsalat qəzası risklərinin yüksək olduğu yerlərdə sağlam və təhlükəsiz əməyin təmin edilməsi üzrə qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqində mühüm rola malikdir».

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin proqram rəhbəri Rza Zülfüqarzadə təmsil etdiyi təşkilatla ölkəmiz arasında əməkdaşlığın əməyin mühafizəsi sahəsini də əhatə etməsindən məmnunluğunu ifadə edib, belə tədbirlərin sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması işlərində səmərəli olduğunu vurğulayıb.

Seminarda Əməyin Mühafizəsi Agentliyinin məsul işçisi Tim Tregenzanın, beynəlxalq ekspert Vikinq Husberqin Aİ-də əməyin təhlükəsizliyi üzrə strategiyalar və qanunvericilik, peşə riskinin qiymətləndirilməsi, əməyin təftişi üzrə müasir yanaşmalar, praktiki vasitələr, ayrı-ayrı Avropa ölkələrinin bu sahədə təcrübələri və s. barədə məlumatları dinlənilib, qabaqcıl təcrübələrdən irəli gələn innovativ iş metodlarının yerli şəraitdə tətbiqi məsələləri müzakirə olunub.

**AYTƏN**

# Təqsirkar sürücünün ailə üzvləri üçün sığorta təminatı...

*«İcbari sığortalar haqqında» Qanun qəbul edildikdən sonra respublika ərazisində hər kəs yol-nəqliyyat hadisəsi nəticəsində sağlamlıqlarına dəymiş zərərə görə sığorta ödənişi almaq hüququ qazanmışdır. Lakin qanunda bəzi istisnalar da müəyyən edilmişdir ki, bunlardan biri yol-nəqliyyat hadisəsinin baş verməsində təqsirkar olan sürücünün zərərçəkmiş ailə üzvləri üçün sığorta təminatının müəyyən edilməməsidir.*

Dövlət Sığorta Nəzarəti Xidmətinin Lisenziyalaşdırma, ərizə və şikayətlər şöbəsinin baş məsləhətçisi Firdovsi Ağaşirin bu məsələni şərh edərək bildirib ki, beynəlxalq təcrübədə təqsirkar sürücünün ailə üzvləri ilə bağlı məsələyə yanaşma fərqlidir. Bəzi ölkələrdə sığortalının və ya sığorta olunanın ailə üzvləri istisna edilirlər, bəzilərində isə təminata daxil edilirlər.

«İcbari sığortalar haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən, sığortalı və (və ya) sığorta olunanın ailə üzvləri istisna olmaqla, bu Qanuna görə mülki məsuliyyətin icbari sığortası üzrə sığorta müqaviləsinin tərəfi olmayan, sığorta olunanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində zərər çəkən, eyni zamanda sığorta ödənişi almaq hüququna malik olan fiziki şəxslər (fiziki şəxs öldüyü halda, onun ailə üzvləri) və ya hüquqi şəxslər, yaxud onların hüquqi varisləri üçüncü şəxs sayılırlar. Qanuna əsasən, yol-nəqliyyat hadisəsinin baş verməsində təqsiri olan sürücünün özündən və ailə üzvlərindən başqa, zərərçəkmiş şəxslərin hər birinə sığorta ödənişi həyata keçirilə bilər. Ailə üzvlərinin təminata daxil edilməməsinin əsas səbəblərindən biri şəxsin öz ailə üzvləri qarşısında mülki məsuliyyətinin yaranmamasıdır. Digər səbəb kimi isə bəzi dələduzluq və cinayət əmelləri törətməyə meyilli insanlara bu pis niyyətlərini həyata keçirmək üçün qanunvericilikdə imkanın yaradılmamasıdır.

Qanunda sığortalı və ya sığorta olunanın ailə üzvlərinə dəymiş zərərə görə sığorta təminatı verilmədiyi göstərildiyindən, avtomobil idarə edən və ya avtomobil sahibi olan şəxslərə ailə üzvlərinə dəymiş zərərə görə sığorta təminatı almaq üçün könüllü şəkildə əlavə müqavilə bağlamaları tövsiyə edilir. Bu hal gələcəkdə baş verə biləcək hər hansı sığorta hadisəsi nəticəsində istər ailə üzvlərinə, istərsə də kənar şəxslərə dəymiş zərərə görə sığorta ödənişini almağa şərait yaradacaq və sığorta şirkətləri ilə vətəndaşlar arasında narazılıqlara son qoyacaqdır.

Beynəlxalq praktikanı araşdırarkən belə qənaətə gəlmək mümkündür ki, bu sahədə ayrı-ayrı ölkələrin mövqeləri bir-birindən fərqlənir. Sığorta bazarı inkişaf etmiş Türkiyə Cümhuriyyətində bu məsələyə bizim qanunvericilikdə olduğu kimi yanaşılır. Əgər təqsirkar adamın avtomobilində olan ailə üzvlərindən kimsə xəsarət alarsa və ya ölərsə, həmin şəxsə görə sığorta ödənişi verilmir. İcbari şəkildə bağlanan bu sığorta müqavilələrində birinci dərəcə ailə üzvləri və sığortalı istisna olmaqla, bütün zərərçəkmiş üçüncü şəxslərə dəymiş zərərə görə sığorta ödənişi həyata keçirilir. Ailə üzvlərinin təminata daxil edilməməsinin səbəbini Türkiyə sığorta bazarında çalışan ekspertlər belə əsaslandırırlar ki, onların təminata daxil edilməsi halında sığorta sahəsində dələduzluq halları hədsiz dərəcədə çoxala bilər.

Sığorta bazarında kifayət qədər təcrübəsi olan Amerika Birləşmiş Ştatlarında isə üçüncü şəxslər qarşısında mülki məsuliyyətin icbari sığortasında vəziyyət tam fərqlidir. Azərbaycanda təqsirkar sürücünün avtomobilində olan, lakin ailə üzvü olmayan xəsarət alan və ya ölən şəxslərə görə sığorta ödənişinin həyata keçirildiyi halda, ABŞ-da təqsirkar sürücünün avtomobilində olan bütün şəxslər sığorta təminatından kənardır. ABŞ sığorta bazarı ekspertlərinin rəylərinə görə, sərnişinlərə təminatın verilməsi halında sığorta dələduzluğu hallarının baş verməsi mümkündür. İstər ailə üzvlərini, istərsə də avtomobildə olan digər şəxsləri təminat dairəsinə daxil etmək üçün könüllü qaydada sığorta müqaviləsi bağlanılmalıdır.

Sığorta mexanizminin yarandığı və ortaya çıxdığı Böyük Britaniyada bu məsələyə daha liberal yanaşılır. Burada təqsirkar sürücünün avtomobilindəki şəxslərə, onun ailə üzvü olub-olmamasından asılı olmayaraq, sığorta ödənişinin verilməsi nəzərdə tutulur, bu zaman sürücünün özü isə sığorta təminatından kənarda qalır. Yol-nəqliyyat hadisəsinin baş verməsində təqsiri olan şəxsin hərəkətlərindən zərər çəkən hər bir şəxsə sığorta ödənişi verilir.

Avtomobil vasitələrinin vurduğu zərərə görə mülki məsuliyyət üzrə Avropa Konvensiyasında edilmiş son dəyişikliklərdən biri təqsirkar sürücünün ailə üzvlərinə dəymiş zərərə görə sığorta təminatının verilməsidir. Avropa konvensiyası və Avropa direktivlərinə əsaslanaraq, bəzi ölkələrdə təqsirkar sürücünün ailə üzvlərinə dəymiş zərərə görə sığorta təminatının verilməsi nəzərdə tutulur. Məsələn, Polşa Respublikasında mülki məsuliyyəti sığortalanan və hadisənin baş verməsində təqsirli olan sürücünün özü istisna olmaqla, ailə üzvləri və yaxınları üçün təminat müəyyən edilmişdir.

Almaniyada isə mülki məsuliyyəti sığortalanmış sürücünün təqsiri üzündən baş vermiş yol-nəqliyyat hadisələri zamanı onun xəsarət almış və ya həlak olmuş ailə üzvlərinə sığorta ödənişinin verilməsi nəzərdə tutulmamışdır. Sürücünün özü və ailə üzvləri üçün təminat əldə etmək üçün könüllü sığorta müqaviləsinin bağlanılması zəruridir.

Yaponiyada avtomobillərin icbari məsuliyyət sığortası növü üzrə təminat dairəsi o qədər də geniş deyil: yalnız mülki məsuliyyəti icbari qaydada sığortalanmış avtomobilin sürücüsünün təqsiri nəticəsində zərər dəymiş qarşı tərəfin avtomobilində olan şəxslərin və piyadaların aldıqları xəsarətə və həlak olmalarına görə sığorta ödənişi verilməsi nəzərdə tutulur. Təqsirli sürücünün nəinki özü, hətta avtomobilində olan ailə üzvləri və sərnişinlər belə, təminatdan kənarda qalır. Buna görə də onlar əlavə könüllü sığorta müqaviləsi bağlamaq müqabilində sığortalana bilərlər.

Hər bir dövlətin qanunvericiliyi onun daxili xüsusiyyətlərinə uyğun qəbul edilir və təkmilləşdirilir. Respublikamızda aparılan sosial xarakterli tədbirlərin miqyasının genişliyini nəzərə alsaq, qeyd etmək olar ki, sığorta bazarı üçün mümkün bütün risklər bir daha nəzərdən keçirilməklə yol-nəqliyyat hadisəsinin baş verməsində təqsirkar olan sürücünün ailə üzvləri üçün təminatın verilməsi gələcəkdə mümkün ola bilər.



# Ödəniş terminalları üzrə «Qaynar xətt»

Heç kəsə sirr deyil ki, pul hesablaşmalarının, dövlət qurumlarına məcburi ödənişlərin nağd qaydada aparılması şəffaflığın təmin edilməsinə, korrupsiya hüquqpozmalarına qarşı səmərəli mübarizənin aparılmasına maneələr törədir, qeyri-leqal gəlirlərin gizlədilməsinə, vergidən yayınmalara şərait yaradır.

Belə halların aradan qaldırılması məqsədilə dövlət yol polisinə, gömrük xidmətinə və digər qurumlara cərimələrin, rüsumların və digər ödənişlərin POS-terminal vasitəsilə, yaxud elektron qaydada həyata keçirilməsi tapşırığı verilmişdir. Bundan başqa, ölkəmizdə elektron hesablaşma mexanizmi yaradılmışdır ki, bu da ödənişlərin real vaxt rejimində elektron qaydada və ya plastik kartlar vasitəsilə şəffaf, təhlükəsiz, səmərəli reallaşdırılmasına geniş imkanlar açır.

Bunlarla yanaşı, ödəniş terminallarının fəaliyyəti ilə bağlı vətəndaşların müəyyən sorğuları, onları narahat edən məsələlər də gündəliyə gəlməkdədir. «ExpressPay» ödəniş terminalları üzrə müştəri məmnunluğunu artırmaq məqsədilə «Qaynar xətt» xidməti yaradılıb. Artıq vətəndaşlar 24 saat ərzində istənilən təklif, şikayət və ya texniki nasazlıq barədə (055) 5000 132 nömrəsinə zəng vura və ya «WhatsApp» vasitəsilə mesaj göndərə bilərlər.

Qeyd edək ki, «Expressbank»ın ölkə üzrə 90-dək bankomat, 7000-dək POS terminal və 250-dək «ExpressPay» ödəniş terminalı vardır.

**F.İKRAMQIZI**

# Pirallahıda kompüter avadanlıqları istehsal olunacaq

*5 noyabr 2012-ci il tarixli prezident fərmanı ilə Pirallahıda Yüksək Texnologiyalar Parkı (YTP) yaradılması nəzərdə tutulub və bu məqsədlə adada 50 hektar ərazi ayrılıb.*

2015-ci ilin əvvəlindən adada YTP-nin inşasına başlanılıb və tikinti işlərinin yekunlaşması 2016-cı ilin sonlarına nəzərdə tutulub.

YTP-nin Dövlət qurumları və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Zamin Nurəhmədovun sözlərinə görə, infrastrukturun qurulması üçün hazırda özəl investorları bu sahəyə cəlb etmək məqsədilə müəyyən işlər görülür. Bunun üçün məsləhətçilərlə birgə illər üzrə müvafiq biznes modelləri hazırlanıb. Vençur fondları bazarının yaradılması üçün müvafiq araşdırmalar aparılıb və hazırda bu istiqamətdə işlər davam etdirilir.

Şöbə rəisi qeyd edib ki, YTP-də texnoloji transfer mərkəzinin yaradılması, o cümlədən kompüter avadanlığı istehsalı üçün lazımi tədbirlərin görülməsi planlaşdırılır: «Biz yerli elmi tədqiqatların nəticələri ilə yanaşı, həm də dünyadakı yeni və yüksək texnologiyaları Azərbaycanda istehsala cəlb edərək rəqabətədavamlı məhsulların istehsalı üçün müvafiq tədbirlərin görülməsini planlaşdırırıq».

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında (hazırda 111№-li, 112№-li hesablarda) aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Bir daha diqqətinizə çatdırmaq istəyirik ki, torpaq, tikili və avadanlıqlar sinfinə aid olan uzunmüddətli aktivlərin hesabat tarixinə qiymətləndirilməsi vacibdir və bu, qanunvericiliyin tələbidir. Mühasiblərə tövsiyə olunur ki, yenidənqiymətləndirmə modellərindən istifadə etsinlər. Torpaq, tikili və avadanlıqların yenidən qiymətləndirilməsi nəticəsində balans dəyəri azalarsa, aşağıda göstərilənlər nəzərə alınmalıdır. Sual əsasında izahlara başlayaq.

***1. Yenidənqiymətləndirmə nəticəsində yaranan mənfi azalmalar üzrə məbləğlər tam olaraq hansı halda mənfəət və zərər haqqında hesabatda xərc kimi tanına bilər, yəni «yenidənqiymətləndirmədən xərclər» başlığı altında 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alına bilər?***

Əvvəllər (əvvəlki hesabat dövrlərində) bu aktivin yenidən qiymətləndirilməsindən müsbət artım məbləğlər heç vaxt yaranmamışdırsa, yəni bu aktiv üzrə əvvəllər 331 saylı «yenidənqiymətləndirilmə üzrə ehtiyat» hesabının kreditində hər hansı məbləğ uçota alınmamışdırsa və ya əvvəllər bu aktivin yenidən qiymətləndirilməsindən yaranan müsbət artım məbləğlər üzrə hazırkı tarixə bağlanmamış məbləğlər qalmamışdırsa, hazırkı qiymətləndirmə tarixində mənfi azalmalar üzrə tam məbləğ 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alınır (MMUS 7, maddə 38).

Deməli, aydın olur ki, yenidənqiymətləndirmə nəticəsində yaranan mənfi azalmanın tam məbləği o halda 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alına bilər ki, əvvəllər 331 saylı hesabın kreditində artım məbləğlər uçota alınmasın. Əvvəllər 331 saylı hesabın kreditində uçota alınan məbləğ olduğu halda, hazırkı azalma üzrə məbləğin 331 saylı hesabın kreditində uçota alınan məbləğlər qədər hissəsi 331 saylı hesabın debetində, qalan hissəsi isə (əgər qalarsa) 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alınır.

Əvvəllər artmalar olmayıb, hazırda azalma olub - 1000 manat

Dt 731 - Kt 111 = 1000 manat

***2. Yenidənqiymətləndirmə nəticəsində yaranan mənfi azalmalar üzrə məbləğlər tam olaraq hansı halda kapital ehtiyatının azaldılmasına yönəldilə bilər, yəni «kapital ehtiyatları» başlığı altında 331 saylı «yenidənqiymətləndirilmə üzrə ehtiyat» hesabının debetində uçota alına bilər.***

Əvvəllər (əvvəlki hesabat dövrlərində) bu aktivin yenidən qiymətləndirilməsindən müsbət artım məbləğlər yaranmışdırsa və bu artımlar əvvəllər 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının kreditində uçota alınmışdırsa, əvvəllər uçota alınan bu artım məbləğlər hazırkı mənfi azalmanın tam məbləğindən az deyildirsə, belə halda hazırkı yenidənqiymətləndirmədən yaranan mənfi azalmalar üztə tam məbləğ 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının debetində uçota alınır. Əgər əvvəllər uçota alınan artım məbləğlər hazırkı mənfi azalmanın tam məbləğindən azdırsa, hazırkı yenidənqiymətləndirmədən yaranan mənfi azalmalar üztə tam məbləğin 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyar» hesabının kreditində uçota alınan məbləğ qədər hissəsi 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının debetinə silinir, qalan hissəsi isə 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alınır.

Əvvəllər artma olub - 1000 manat

Dt 111 - Kt 331 = 1000 manat

Hazırda azalma olub - 800 manat

Dt 331 - Kt 111 = 800 manat.

***3. Yenidənqiymətləndirmə nəticəsində yaranan mənfi azalmalar üzrə tam məbləğin hansı halda bir hissəsi mənfəət və zərər haqqında hesabatda xərc kimi tanına bilər, yəni 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində, qalan hissəsi isə kapital ehtiyatını azaldılmasına yönəldilə bilər, yəni 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının debetində uçota alına bilər.***

Əvvəllər (əvvəlki hesabat dövrlərində) bu aktivin yenidən qiymətləndirilməsindən müsbət məbləğlər yaranmışdırsa və bu məbləğlər əvvəllər ehtiyat kimi tanınmışdırsa, yəni 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının kreditində uçota alınmışdırsa, hazırkı tarixdə yenidənqiymətləndirmədən yaranan mənfi azalmalar üzrə tam məbləğ əvvəllər 331 saylı hesabın kreditində uçota alınan məbləğdən çox olduğu halda, hazırkı mənfi azalma üzrə məbləğin əvvəllər 331 saylı hesabın kreditində uçota alınan məbləğ qədər hissəsi hazırda 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının debetində, çox olan hissəsi isə hazırda 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alınır.

Əvvəllər artım olub - 1000 manat

Dt 111 - Kt 331 = 1000 manat

Hazırda azalma olub - 1200 manat

Dt 331 - Kt 111 = 1000 manat

Dt 731 - Kt 111 = 200 manat.

## vergi təqvimi

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | **7** |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | **14** |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | **21** |
| **22** | 23 | 24 | 25 | 26 | 27 | **28** |
| 29 | 30 | 31 | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

22 iyun - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Xarici valyutada yerləşdirilən əmanətlər üzrə faiz dərəcəsi azaldılıb

*Fevral ayının sonlarından dollar üzrə yerləşdirilən əmanətlərə yüksək faiz dərəcələri təyin edən banklar faiz dəhlizini əvvəlkindən də aşağı səviyyəyə endiriblər.*

Mart-aprel-may aylarında vətəndaşların dollar əmanəti üzrə yerləşdirdiyi vəsaitləri 11-14% dərəcəsi ilə qəbul edən bir sıra kommersiya bankları iyuldan qəbul olunacaq əmanətlərə 8%-dən çox dividend ödəməyəcək. Bu rəqəm manatın devalvasiyasından əvvəlki göstəricidən (8-10%) təxminən 2% azdır.

Mərkəzi Bankın tövsiyəsi əsasında qəbul edilən bu qərarın əsas məqsədi əhalinin öz vəsaitlərini manat depozitlərinə yerləşdirməsinə həvəsləndirməkdir. Bank depozitləri üzrə son 4 ayın statistikasına əsasən, ölkə üzrə ümumi əmanət portfelində manat depozitlərinin payının 2 dəfə azalması, dollar depozitlərinin isə 2,5 dəfə artması qeydə alınıb. Devalvasiyadan sonra banklardakı əmanətlərin 70%-i xarici valyutaya çevrilib. Halbuki ötən ilin analoji dövründə manat depozitlərinin payı 70%-ə yaxın idi.

Mövcud tendensiya banklarda manat kütləsinin çəkisinin azalması və banklardan manatla kredit verilməsinin çətinləşməsi ilə nəticələnib. Son aylarda bankların bir çoxu manatla kredit verilişini məhdudlaşdırıb, bir neçə bank isə ümumiyyətlə, manatla kredit verməyi dayandırıb. Kommersiya banklarının mütəxəssiləri hesab edirlər ki, əhalinin dollar əmanətinə axınının qarşısını almaq üçün xarici valyutada yerləşdirilən əmanətlər illik faiz dərəcələrinin aşağı salınması öz təsirini göstərə bilər. Bu qərarı dəstəkləyən «AccessBank»ın baş meneceri Mixael Hofman KİV-ə aşıqlamasında bildirib ki, manat və dollar əmanətlərinin gəlirliliyi eyni ola bilməz, milli valyutanın dividendi yüksək olmalıdır.

Yeri gəlmişkən, Mərkəzi Bank kommersiya banklarının manat ehtiyatlarını artırmaq üçün onlara manatla vəsait ayırmağa da qərar verib. Yaxın günlərdə ehtiyat fonddan banklara pul ayrılacaq və banklar bu pulu ancaq kreditləşməyə sərf etməli olacaqlar. İqtisadiyyatın istehsal və xidmət bölmələrində çalışan sahibkarlara, mülkiyyətçilərə ayrılacaq vəsaitlərə nəzarət olunacaq, həmin vəsaitlərin valyuta mübadiləsinə yönləndirilməsinə icazə verilməyəcək.

Mərkəzi Bank Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıq çərçivəsində ölkə banklarına dəstək üçün digər addımlar atmağı da nəzərdə tutur.

**ELBRUS**



## Xarici mətbuat səhifələrində

# Azərbaycan sürətlə inkişaf edən iqtisadiyyata malik dövlətdir

### *Rusiyanın nüfuzlu «Nezavisimaya qazeta» nəşrində ölkəmizin iqtisadi göstəriciləri və inkişaf potensialı ilə bağlı geniş məqalə dərc olunub*

*Aleksandr Malışev adlı müəllifin yazdığı məqalədə bildirilir ki, birinci Avropa Oyunlarına ev sahibliyi edən Azərbaycan sürətlə inkişaf etmiş iqtisadiyyata malik dövlətə çevrilir, artıq dünyanın siyasi və iqtisadi xəritəsində özünə möhkəm yer tutub.*

Məqalədə deyilir: «Hazırda respublikanın çox etibarlı təhlükəsizlik dayağı - karbohidrogen ehtiyatları var. Burada nefti sənaye üsulu ilə hələ 1847-ci ildən çıxarmağa başlayıblar. Bu isə hətta ABŞ-ı da qabaqlamaq deməkdir. Azərbaycan hakimiyyəti təbii ehtiyatlardan əldə olunan vəsaitləri infrastruktur layihələri və iqtisadiyyatın qeyri-neft sektoruna yönəltməyə üstünlük verir».

Qəzetə açıqlama verən Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidentinin müavini Vitali Bəylərbəyov 2005-2015-ci illəri Azərbaycanda neft-qaz sənayesinin çiçəklənmə dövrü kimi xarakterizə edib: «Bu gün dünyadakı neft hasilatında Azərbaycanın payı o qədər də böyük deyil, 1 faizdən azca artıqdır. Ancaq bu gün bizim neftimiz Cənub-Şərqi Asiya, Avropa, Cənubi və Şimali Amerikada 30-dan artıq ölkəyə nəql olunur. Qaz hasilatının artması fonunda isə «Cənub» qaz dəhlizinin yaranması bizim ciddi uğurumuzdur».

Energetika naziri Natiq Əliyevə istinad edən məqalə müəllifi yazır ki, Azərbaycan illik neft hasilatını 40-45 milyon ton səviyyəsində saxlamaq niyyətindədir. N.Əliyev bildirib ki, ötən il ölkədə 29 milyard kubmetr qaz hasil olunub: «Azərbaycanın qaz potensialı daha yüksək olduğundan, bir neçə il ərzində biz bu göstəricini iki dəfə artırmağa çalışacağıq. 2035-ci ilə Avropaya enerji daşıyıcılarının ixrac həcminin kifayət qədər yüksələcəyi proqnozlaşdırılır. Alternativ enerji bu tələbatı ödəmək iqtidarında deyil. Buna görə də Azərbaycan Avropa üçün böyük önəm kəsb edir. Bu barədə beynəlxalq miqyaslı konfrans və tədbirlərdə tez-tez danışılır. Xüsusilə son illər qeyd olunur ki, Avropa və ABŞ Azərbaycanda həyata keçirilən bütün layihələri birmənalı olaraq dəstəkləyir. Çünki ölkəmizə enerji daşıyıcılarının dünya bazarlarına çatdırılmasında həm mənbə, həm də Avropa ölkələri üçün yeni marşrut kimi baxılır».

Məqalədə neft emalı zavodlarının modernləşdirilməsi məsələlərinə də yer ayrılıb. Müəllif yazır ki, artıq Heydər Əliyev adına Neft Emalı Zavodunun tam modernləşdirilməsinə start verilib. Yeni neft-qaz və neft-kimya kompleksinin layihələndirilməsi işlərinə də başlanılıb. Bu kompleks Bakının cənubunda inşa olunacaq və hazırda fəaliyyət göstərən iki neft və bir qaz emalı zavodunu əvəz edəcək. Məqalədə 10-15 milyard dollarlıq nəhəng layihənin mərhələlərlə 2020-2030-cu illərdə istifadəyə veriləcəyi göstərilib.

Müəllifə görə, respublikada hamı başa düşür ki, yalnız neft-qaz ehtiyatlarına bel bağlamaq qarşısına böyük hədəflər qoymuş dövlət üçün elə də uzaqgörənlik olmazdı. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) prezidenti Rüfət Məmmədov qəzetə açıqlamasında bildirib ki, bu gün hökumətin əsas vəzifələrindən biri iqtisadiyyatın şaxələndirilməsini təmin etməkdir: «İqtisadiyyatın diversifikasiyası ilə artıq 10 ildir ki, məşğul oluruq. Hiss etdik ki, iqtisadiyyatın digər sahələrinə də diqqət ayırmaq lazımdır. Çünki neft-qaz sektorunun dominantlığı iqtisadi təhlükəsizliyimizi təhdid edirdi. Bu baxımdan, digər sahələrdə də sərfəli biznes mühiti yaratmağa çalışırıq və bu istiqamətdə böyük investisiyalar yatırırıq. 2015-ci ilin əvvəlindən artıq Azərbaycan iqtisadiyyatının 60 faizi qeyri-neft sektorunun hesabına formalaşır».

Müəllif yazır ki, Azərbaycan bu tendensiyanı davam etdirmək niyyətindədir. Bildirilir ki, «Azərbaycan - 2020: gələcəyə baxış» konsepsiyası beş il sonra qeyri-neft sektorundan gəlirləri 80 faizə çatdırmağı nəzərdə tutur: «Hazırda Azərbaycanda yüksək gəlirli sahələr, məsələn, informasiya texnologiyaları, kosmik sənaye sahələri prioritet hesab olunur. 2012-ci ildən bəri orbitə iki Azərbaycan peyki buraxılıb. İqtisadi inkişafın hərəkətverici qüvvələri sənaye və yüksək texnologiyalar parklarıdır. O parklarda fəaliyyət göstərən şirkətlər yeddi illiyə bütün vergilərdən azad olunublar. Parklar biznes layihələrinə start verilməsi üçün bütün zəruri kommunikasiyalarla təchiz olunur ki, bu da investorların infrastrukturun yaradılması ilə bağlı xərclərini azaldır».



A.Malışev onu da qeyd edib ki, ölkədə 2003-cü ildə qeyri-neft sektoruna 300 milyon dollar investisiya qoyulduğu halda, 2014-cü ildə bu göstərici 5 milyard dollara çatıb: «Ümumiyyətlə, 1995-ci ildən Azərbaycan iqtisadiyyatına 200 milyard dollar həcmində investisiya qoyulub ki, onun da 52 faizi yerli, 48 faizi isə xarici investisiyaların payına düşür. Azərbaycana sərmayə qoyan əsas investorlar Böyük Britaniya, Türkiyə, ABŞ, Yaponiya, Hollandiya və Rusiyadır. Bu gün ölkədə Rusiya kapitalı ilə 599 şirkət çalışır. İnvestisiyanın ümumi həcmi 1,8 milyard dollardır. Bu vəsaitlərin 64 faizi qeyri-neft sektorunun - kənd təsərrüfatı, qida və emal sənayesi, turizm, informasiya texnologiyaları, kimya və neft-kimya sahələrinin payına düşür. Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətədavamlılığına görə dünyada 38-ci yeri tutur».

Məqalənin sonunda o da qeyd edilir ki, Bakıda birinci Avropa Oyunlarının keçirilməsi Azərbaycanın mədəniyyəti, zəngin multikulturalizm ənənələri və turizm imkanlarının təbliği ilə yanaşı, ölkənin imicinə də müsbət təsir göstərəcək. Bu isə yeni biznes imkanları deməkdir.

beynəlxalq panoram

# İsveçrəlilər yeni vergi təşəbbüsünə «yox» deyiblər

*İsveçrənin müxalif «Yaşıllar» və Demokratik-xristian partiyaları tərəfindən irəli sürülmüş və ölkə səviyyəsində referenduma çıxarılmış yeni vergi təşəbbüsləri ölkənin əksər kantonları tərəfindən rədd edilib.*

İsveçrəlilər referenduma çıxarılmış hər iki ictimai təşəbbüsdən: uşaqlara verilən təqaüdlərə vergilərin ləğvindən və zərərli enerji mənbələrinə vergilərin artımından imtina ediblər.

Qaydalara əsasən, referenduma çıxarılmış məsələlərin qəbul edilməsi üçün «ikiqat əksəriyyət» adlandırılan mexanizm əsasında səs çoxluğu əldə edilməli idi. Bu, ölkə vətəndaşlarının əksəriyyəti ilə yanaşı, İsveçrənin 26 kantonu və yarımkantonunun da əksəriyyətinin səs çoxluğunu almaq deməkdir. Həmin şərtlərdən heç olmasa biri təmin edilməzsə, təşəbbüs rədd olunmuş sayılır. Son referendumda məhz belə də olub - əksər kantonlar və yarımkantonlar hər iki təşəbbüsün əleyhinə səs verib.

Ətraf mühitin müdafiəsi və uşaqlı ailələrə yardımın artırılması ideyası isveçrəlilərə xoş görünsə də, vətəndaşlar hökumətin çağırışına dəstək verərək hər iki təşəbbüsə qarşı səs verməyi üstün tutublar.



# Avropa Komissiyası «qara siyahı»nı açıqladı

*Avropa İttifaqı vergi qaçaqçılığına şərait yaradan ölkələrin və ərazilərin siyahısını nəşr edib. Ekspertlərin rəyinə görə, həmin ölkələrin qanunvericiliyi şəffaf vergitutma və gəlirlərin gizlədilməsi barədə xəbərdarlıq edilməsi baxımından Avropa qanunçuluğunun tələblərinə uyğun deyil.*

Avropa Komissiyasının rəsmi saytında bu cür 30 ölkə və ərazinin adları verilib. Vergidən yayınmağa şərait yaradan ölkələrin siyahısına daxildir: Anqilya (İngiltərənin şimal-şərqində ada), Andorra, Antiqua və Barbuda, Baham adaları, Barbados, Beliz, Bermud adaları, Virciniya adaları və Britaniya Virciniya adaları, Bruney, Kayman adaları, Kuka adaları, Qrenada, Qernsi, Honkonq, Liberiya, Lixtenşteyn, Maldiv, Marşal adaları, Mavriki, Monako, Montserrat, Nauru, Niue, Panama, Sent Kits və Nevis, Sent Vinset və Qrenadina, Seyşel, Terks və Kaykos adaları, Vanuatu.

Avropa Komissiyası Birlik ölkələrində köklü vergi islahatlarının aparılması üçün fəaliyyət planını da təqdim edib. Bu sənədin başlıca məqsədi vergidən yayınma probleminin həllinə, daimi gəlir əldə etməyin təmin olunmasına və biznesin maraqlarına cavab verən vahid bazarın möhkəmlənməsinə yönəldilib.



# Latviyada alkoqollu içkilərə aksizlər artırılıb

*Hakim hökumət koalisiyası may ayında qanunverici alkoqollu içkilərə aksiz vergisinin artımını nəzərdə tutan dəyişiklikləri qəbul edib.*

Baş nazir Laymdota Strauyuma qeyd edib ki, hökumətin bu təşəbbüsü müvafiq sahənin aparıcı şirkətləri ilə razılaşdırılıb. Dəyişikliyə əsasən, pivəyə aksiz vergisinin 2015-ci il iyulun 1-dən 22,6%, 2016-cı il aprelin 1-dən 10,5%, 2017-ci ilin aprelindən isə 4,8% artımı nəzərdə tutulur.

Latviya alkoqollu içkilər istehsalı təşkilatının icraçı direktoru Andrey Strateyçuksun sözlərinə görə, artıq bir neçə ildir ki, alkoqollu içkilərə aksiz vergisi dərəcələri dəyişmirdi. Buna görə də hökumətin bu dərəcələrə yenidən baxması istehsalçılar üçün sürpriz olmayıb.

Xarici ölkələrin təcrübəsi

# Çin Xalq Respublikasının vergi sistemi: *fiziki şəxslərin gəlir vergisi*

**Əvvəli ötən sayımızda**

***Zərərlər:*** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin zərəri yerli vergi orqanlarının təsdiqi əsasında növbəti beşillik müddətə keçirilə bilər. Geri tarixə keçirmə mümkün deyil.

Bəzi gəlir növlərinə aid zərər yalnız həmin gəlir növü üzrə əvəələşdirilə bilər. Qiymətli kağızlardan yaranmış zərər isə qiymətli kağızlardan əldə olunan gəlirlə əvəzləşdirilə bilməz.

***Ödəmə mənbəyində tutulan vergilər:*** Muzdlu işdən gəlir proqressiv dərəcələrlə aylıq çıxılmalar formasında və ya ödəmə mənbəyində vergiyə cəlb olunur. Vergi işəgötürən tərəfindən tutulur və ödəmə mənbəyində vergi tutulan ayın ilk 15 günü ərzində yerli vergi bürosuna ödənilir. Tamamilə və ya qismən Çindən xaricdə yerləşən xarici müəssisə tərəfindən ödənilən və xarici investisiyalı müəssisələrə və ya əməkdaşları xaricdə yerləşən bu cür müəssisədən muzdlu işdən gəlir əldə edən xarici müəssisələrə aid edilən muzdlu işdən gəlir də ödəmə mənbəyində vergiyə cəlb olunur. Dividendlər, faizlər, xidmət haqları, royalti və icarə haqları da ödəmə mənbəyində vergiyə cəlb olunur.

Qeyri-rezident fiziki şəxslərin aşağıda qeyd olunan məcmu gəlirlərindən son ödəmə mənbəyində vergi tutulur (kapital gəlirləri istisna olmaqla):

- dividendlər - 20%; fiziki şəxslər tərəfindən Çində qeydiyyatdan keçmiş şirkətlərdən əldə olunan dividendlər - 5% və ya 10%;
- faizlər - 20%; vergi sazişləri mövcud olduqda daha aşağı dərəcə tətbiq edilə bilər. Əmanətlər və dövlət istiqrazları üzrə faizlər fiziki şəxslərin gəlir vergisindən azaddır;
- royalti - 20%;
- səhmlərin köçürülməsindən əldə olunan kapital gəlirləri - 20%;
- icarə haqqı və lizinq gəlirləri - 20%.

Şəxsi xidmətlərə görə ödənişlər 20% sabit dərəcə ilə vergiyə cəlb olunur. Ödənişin məbləği 3250 ABŞ dollarından çox olarsa, xüsusi proqressiv dərəcələr tətbiq edilir.

***Vergi dövrü:*** Vergi dövrü təqvim ilidir.

***Vergi bəyannamələrinin təqdim edilmə müddəti:*** Gəlirlərin əksər növləri ödəmə mənbəyində vergiyə cəlb olunur və verginin ödəmə mənbəyində tutulması üzrə məsul agentlər bəyannaməni aylıq əsasda təqdim edirlər. Digər vergi növləri üzrə isə vergi ödəyicisi vergi öhdəliyi yarandığı aydan sonra 15 gün müddətində vergini ödəməli və aylıq vergi bəyannaməsini təqdim etməlidir. Çindən kənarda gəlir əldə edən vergi ödəyiciləri il başa çatdıqdan sonra 30 gün müddətində vergi bəyannaməsini təqdim etməlidirlər.

Vergiyə cəlb olunan ümumi gəlirlərinin həcmi 19.500 ABŞ dollarından çox olan vergi ödəyiciləri vergini özləri hesablamalı (self-assessment) və vergi ili başa çatdıqdan sonra vergi bəyannamələrini təqdim etməlidirlər. Əks halda, işəgötürən və ya gəliri ödəyən şəxs tərəfindən ödəmə mənbəyində tutulan vergi son vergi hesab olunur.

Hər bir fərd ayrıca vergi ödəyicisi hesab olunur və gəlirin cəmlənməsi və ya ər/arvad üçün vergilərin birgə ödənilməsi sistemi mövcud deyildir.

***Verginin ödənilmə müddəti:*** Muzdlu işdən gəlir və əməkhaqqı kimi gəlirin əsas növləri aylıq əsasda və ya əvvəlcədən ödəmə əsasında ödəmə mənbəyində vergiyə cəlb olunur. Artıq ödənilmiş vergilər əvəzləşdirilir.

# Moldovada yol vergisi bir neçə dəfə artırılacaq

Hökumət maliyyə çatışmazlığı üzündən ölkənin yol şəbəkəsinin çıxılmaz vəziyyətə düşməsindən narahatdır. Respublikanın avtomobil yolları üçün maliyyələşdirmə həcminin artırılması məqsədilə hökumət yollardan istifadə üçün nəqliyyat vasitələrinin ödəmələrinin 50% artırılmasına şərait yaradan qanunu qəbul etməyə hazırlaşır. İlkin hesablamalara əsasən, bu, təxminən illik 380 milyon ley (100 ley = 5,49 ABŞ dolları) gəlir gətirəcək.

Gözlənildiyinə görə, bu vəsaitin böyük bir hissəsi (296 milyon ley) avtomobil yollarından istifadə üçün ödəmələrin artımı hesabına yığılacaq. 50 milyon ley sürücülər tərəfindən yol buraxılışlarının əldə edilməsindən, 9 milyon ley Moldova ərazisi vasitəsilə beynəlxalq daşınmalara verilən icazələrdən, 15 milyon ley isə digər yol yığımlarından daxil olacaq.



*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Qoyun cinsinə aid heyvan növü; 2.Gürcüstanın ikinci ən böyük şəhəri; 3.Şərqdə daha çox işlədilən kişi adı; 4.Tomat, sirkə və ədviyyatdan ibarət sous; 5.Meksika və Amerika kovboyları arasında ənənəvi idman növü; 6.Borclar üzrə faiz və ya əsas məbləğin ödənilməsinə dair öhdəliyin yerinə yetirilməməsi nəticəsində ağır vəziyyət; 9.Uşaq vaxtı bədii və cizgi filmlərində *(«Qırmızı papaq» bədii filmi, «Qızcığaz və delfin» cizgi filmi və s.)* kadrarxası ifa etdiyi mahnılara görə məşhurlaşmış, 1979-cu ildə çəkilmiş «Mən mahnı qoşuram» bədii filmində baş qəhrəmanı - Sona obrazını canlandıran sovet və Rusiya müğənnisinin adı; 13.Yuxu; 15.ABŞ tarixində ilk katolik prezident; 16.Şair, publisist, 1977-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, respublika Lenin komsomolu mükafatı laureatının adı; 17.İslamda İsanın anası; 18.Beynəlxalq foto agentliyi; 20.Üzərində silahlı adam şəkli olan kart; 21.Azərbaycanın məşhur gülüş ustası. «Nəsrəddin Xocanın 12 məzarı» bədii filmində (1966) baş rolun ifaçısının adı. **Soldan sağa:** 1.Gözlə görünməyən obyektlərə baxmaq üçün böyüdücü şüşələr sistemi olan optik cihaz; 5.Ud tipli alətlər qrupuna daxil olan qədim simli çalğı aləti; 7.Hər hansı mənbədəki işığın gücünü müəyyən etmək üçün cihaz; 8.Şəfqətli, mehriban, meyl edən, sevən, bəyənən; 10.Azərbaycandan görünən ekvatorial bürc; 11.Böyük Britaniyada şəhər; 12.Ensiz, dərin, yamacları dik və qayalıq dəniz körfəzi; 14.Sovet vaxtında az sayda istehsal olunan QAZ-13 reprezentativ avtomobilin adı; 19.Azərbaycan Respublikasının əməkdar rəssamı, Naxçıvan Rəssamlar Birliyinin sədrinin adı; 21.Cinayətkarlar, quldurlar dəstəsi; 22.Elektrik dövrəsini müəyyən hadisələr zamanı avtomatik olaraq açan və ya bağlayan cihaz/alət; 23.Nəzəriyyəçi fizik, müasir nəzəri fizikanın yaradıcılarından biri, fizika üzrə Nobel mükafatı laureatı. Məşhur $E=MC^2$ düsturunun müəllifi; 24.Ağ, qara növləri olan xırda, şirəli meyvə və onun ağacı; 25.Bir növün iki fərqli formada mövcud olması.



*Az sayda istehsal olunan sovet avtomobili*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Hürrəm *(Sultan)*; 2.Səyavuş *(Şəfiyev)*; 3.Yavər *(Kələntərli)*; 4.Alyans; 5.Amman; 6.Urmiya; 9.Amon; 13.Əsna; 15.Samuray; 16.Adrian; 17.Minarə; 18.Vəsait; 20.Bəbir; 21.Hobbi. **Soldan sağa:** 1.Hüseynağa *(Sadıqov)*; 5.ATU; 7.Reynveyn; 8.İmam; 10.Ənvər Çingizoğlu *(Fərəcov)*; 11.Numeniy; 12.Əşrəf *(Yusifzadə)*; 14.Knoss; 19.Dübəndi; 21.Həmzə; 22.İrbe; 23.Kanberra; 24.Nar; 25.Ədəbiyyat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

Baku 2015
1st EUROPEAN GAMES

# Avropa Oyunlarında Azərbaycan idmançılarının inamlı çıxışı

## *Medalların sayına və əyarına görə yarışlarda ölkəmizə ən çox uğur qazandıran güləşçilərimizdir*

*Artıq bir neçə gün sonra «Bakı-2015» ilk Avropa Oyunları tarixə qovuşacaq. Azərbaycanın yüksək təşkilatçılığı ilə keçirilən bu böyük idman tədbirində idmançılarımız öz nailiyyətləri ilə bizi sevindirməkdə davam edirlər. Qazanılan medalların sayına və əyarına görə yalnız Rusiya Federasiyasından geri qalan komandamızın aktivində, iyunun 21-nə olan nəticələrə görə, ümumilikdə 39 medal var ki, onlardan 14-ü qızıl, 11-i gümüş, 14-ü isə*

«Bakı 2015» birinci Avropa Oyunlarında təbii ki, Azərbaycan güləşçilərinin möhtəşəm çıxışını xüsusi vurğulamaq lazımdır. Yarışları 6-sı qızıl, 2-si gümüş, 7-si isə bürünc olmaqla ümumilikdə 15 medalla başa vuran pəhləvanlarımız yalnız güclü Rusiya təmsilçilərindən geri qalıblar. Artıq əminliklə demək olar ki, Avropa Oyunlarında medal sayına və əyarına görə Azərbaycana ən çox uğur qazandıran məhz güləşçilərimiz olub.

Xatırladaq ki, yarışların ilk iki günündə mübarizə aparan yunan-Roma güləşçilərimiz Azərbaycana iki dəst medal qazandırıblar. Rəsul Çunayev (71 kq) və Elvin Mürsəliyev (75 kq) qızıl, Rafiq Hüseynov (80 kq) və Sabah Şəriəti (130 kq) gümüş, Elman Muxtarov (59 kq) və Həsən Əliyev (66 kq) bürünc medallara sahib olub.

Qadın güləşçilərin yarışında isə zərif qəhrəmanlarımız 2 qızıl və 1 bürünc medal qazanıb. Qızıl medalları yığmamıza Mariya Stadnik (48 kq) və Anjela Doroqan (53 kq), bürüncü isə Nataliya Sinişin (55 kq) qazandırıb.

Sərbəst güləşçilərin ilk yarış günündə pəhləvanlarımız 2 qızıl və 1 bürünc medal əldə ediblər. Toğrul Əsgərov (65 kq) və Xetaq Qazyumov (97 kq) qızıl, Cəbrayıl Həsənov (74 kq) bürünc medala layiq görülüblər. Güləş yarışlarının son günündə döşək üzərinə 4 sərbəst güləşçimiz çıxıb. Onlardan Hacı Əliyev (61 kq), Ruslan Dibirhacıyev (70 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) Avropa Oyunlarının bürünc medalını qazanıblar.

**«Bakı-2015» ilk Avropa Oyunlarında medal qazanan Azərbaycan güləşçilərinin siyahısını təqdim edirik:**

- **Qızıl medallar**
  - Rəsul Cunayev
    *yunan-Roma güləşi, 71kq*
  - Elvin Mürsəliyev
    *yunan-Roma güləşi, 75kq*
  - Mariya Stadnik
    *qadınlar arasında sərbəst güləş, 48 kq*
  - Anjela Doroqan
    *qadınlar arasında sərbəst güləş, 53 kq*
  - Toğrul Əsgərov
    *sərbəst güləş, 65 kq*
  - Xetaq Qazyumov
    *sərbəst güləş, 97 kq*
- **Gümüş medallar**
  - Rafiq Hüseynov
    *yunan-Roma güləşi, 80 kq*
  - Sabahi Şəriəti
    *yunan-Roma, 130 kq*
- **Bürünc medallar**
  - Həsən Əliyev
    *yunan-Roma güləşi, 66 kq*
  - Elman Muxtarov
    *yunan-Roma güləşi, 59 kq*
  - Cəbrayıl Həsənov
    *sərbəst güləş, 74 kq*
  - Hacı Əliyev
    *sərbəst güləş, 61 kq*
  - Ruslan Dibirhacıyev
    *sərbəst güləş, 70 kq*
  - Nataliya Sinişin
    *qadınlar arasında sərbəst güləş 58 kq*
  - Cəmaləddin Məhəmmədov
    *sərbəst güləş, 125 kq*

### AZƏRBAYCANIN «QIZIL» GÜLƏŞÇİLƏRİ


*Rəsul Çunayev*


*Elvin Mürsəliyev*


*Mariya Stadnik*


*Anjela Doroqan*


*Toğrul Əsgərov*


*Xetaq Qazyumov*

mozaika

texnologiya

## «Maşın» gəlir...

*«Hewlett-Packard» (HP) şirkətinin nümayəndələri «HP Discover» konfransında «Machine» («Maşın») layihəsi çərçivəsində yeni hesablama sisteminin yaradılması üzrə aparılan işlər haqqında məlumat veriblər.*

HP müasir kompüterlər üçün xarakterik olan yaddaşın çoxsəviyyəli arxitekturasından imtina etməyi təklif edir. Yeni növ yığıcılar əməli yaddaş qurğusu funksiyasını yerinə yetirəcək. Bu yaddaşın əsasında rezistor, kondensator və induktivlik makarasından sonra mikrosxemlərin dördüncü passiv elementi olan memristorlar dayanacaq. Yeni arxitekturaya keçid məlumatların məhsuldarlığının eyni vaxtda baş verən çoxsəviyyəli artımını və enerji istehlakının azalması zamanı saxlanılma sıxlığını 10 dəfələrlə artırmağa imkan verəcək.




«HP Labs»ın tədqiqat bölməsinin rəhbəri Martin Finin sözlərinə görə, «Machine»in prototipinin 2016-cı ildə təqdimatı nəzərdə tutulur. Bu sistemdə planlaşdırılan bütün innovasiya həlləri reallaşdırılmasa da, HP-də memristor yaddaşın əvəzinə ənənəvi DRAM-çipləri tətbiq ediləcək.

Bununla belə, «Machine»in prototipi sistemin hesablama gücü haqqında təsəvvürə malik olmağa imkan verəcək. Eksperimental qurğuda 2500 hesablama nüvəsi və 320 terabayt daimi yaddaş yerləşdiriləcək. Sistem, həmçinin, yeni növ aparat platforması üçün ixtisaslaşdırılmış proqram təminatı və əməliyyat sisteminin sınaqdan keçirilməsi üçün istifadə olunacaq.

sağlamlıq

## Ebolaya yoluxma sürətlə azalır

*BMT Baş Məclisinin Qərbi Afrikada ebola qripinə reaksiya verilməsi sahəsində təşkilatın fəaliyyətinin icmalına həsr olunmuş qeyri-rəsmi iclası keçirilib.*



BMT-nin Xəbər Mərkəzindən bildirilib ki, iclasda BMT Baş Məclisi nümayəndələrinin müzakirəsinə məruzə təqdim olunub.

Məruzədə qeyd edilir ki, son vaxtlar Qvineya, Liberiya və Syerra-Leonedə ebolaya yoluxma hallarının sayı sürətlə azalır. Mart ayında həftə ərzində orta hesabla 110 yeni yoluxma hadisəsi qeydə alınmışdısa, aprelin sonunda bu göstərici təqribən 10-a enib. 2015-ci ilin fevralından «xəstəliyin aktiv yayıldığı ərazilərin sahəsi» iki dəfədən çox azalıb. Əgər fevral ayında xəstəliyə yoluxma halı barədə ən azı 24 dairənin hərəsindən bir xəbər alınırdısa, apreldə belə xəbərlər üç ölkənin 12 dairəsindən daxil olub. Hazırda xəstəliyin yayılması halları yalnız Qvineyanın və Syerra-Leonenin qərb sahilində qeydə alınır.

Məruzədə qeyd edilir ki, 2015-ci ilin may ayına olan məlumata görə, təqribən 26.700 təsdiq edilmiş, ehtimal olunan və güman edilən ebolaya tutulma halı qeydə alınıb. O da bildirilib ki, indiyədək 11 mindən çox xəstəliyə yoluxma hadisəsi ölümlə nəticələnib.

kosmos

## Nadir asteroid parçası tapılıb

*Antarktidada bir qrup Çin alimi tərəfindən nadir asteroid parçası aşkar olunub. Ümumilikdə isə Vesta asteroidinə məxsus 600 birləşmə tapılıb.*

Bunlardan ən böyüyünün çəkisi 1 kilo 300 qram olub. Tədqiqatların aparıldığı Qrov dağı rayonunda meteorit tipli 12 min parça tapılıb ki, bunların üçü Vesta asteroidinə məxsusdur. Elm adamlarının sözlərinə görə, aşkar edilən asteroid parçasının ölçüsü böyük olduğuna görə, onun öyrənilməsi kifayət qədər vaxt aparacaq.

Vesta asteroidini alimlər hələ 19-cu əsrin əvvəllərində tapıblar. Ölçülərinə görə ən böyük olan asteroid Venera və Mars arasında yerləşir.

camiyyat

## Banknotda qadın rəsmi olacaq

*ABŞ-ın maliyyə naziri Ceykob Lyu jurnalistlərə deyib ki, 2020-ci ildən 10 dollarlıq banknotda qadın rəsmi təsvir ediləcək. O, bu qadının kim olacağını isə dəqiqləşdirməyib.*

Hazırda 10 dollarlıq əskinazda ABŞ-ın birinci maliyyə naziri Aleksandr Hamiltonun rəsmi təsvir edilir. Nazirlikdən bildirilib ki, seçicilərlə xüsusi görüşlərdə və #TheNew10 heşteqi altında sosial şəbəkələrdə amerikalıların fikri öyrəniləcək.

Xatırladaq ki, banknotun dizaynının dəyişdirilməsi ilə bağlı qərar hələ 2013-cü ildə qəbul edilmişdi. Məqsəd təhlükəsizliyin və zəif görənlər üçün rahatlığın təmin edilməsi idi.

Qeyd edək ki, bu, ABŞ dollarında qadın rəsminin təsvir edilməsi ilə bağlı ilk hal deyil. 1865-1869-cu illərdə 20 dollarlıq banknotda bir neçə insanın rəsmi təsvir edilmişdi. Onların arasında hindu şahzadəsi Pokaxontas təxəllüslü Matoakanın da rəsmi olub. Bundan başqa, 1 dollar nominalında olan gümüş sertifikatın üzərində ABŞ-ın birinci prezidentinin xanımı Marta Vaşinqtonun və XIX əsrdə qadın hüquqları uğrunda hərəkatın fəalı Syuzan Entoninin rəsmi təsvir edilmişdi.




faydalı

## Ağcaqanaddan xilas yolu

Yayda ağcaqanadları evdən uzaq tutmaq üçün bir çox kimyəvi maddələrdən istifadə edilir, bu isə insanların sağlamlığına ciddi ziyan vurur, nəfəs yollarında fəsadlar yaradır.

Lakin ağcaqanadın öhdəsindən təbiətin bəxş etdiyi məhsullarla daha sağlam və təhlükəsiz şəkildə gəlmək mümkündür. Təbii ağcaqanad qovucusunu evdə hazırlamaq çox asandır. Bunun üçün 1 ədəd yetişmiş limon, 20 ədəd mixək tələb olunur. Əvvəlcə limonu ovcunuzda yüngülcə sıxıb sulandırın, daha sonra ikiyə bölərək mixəklərin sivri hissəsini limona batırın. Mixək sancılmış limonu masanın üstünə, pəncərənin önünə, yataq otağına qoya bilərsiniz. Ağcaqanadlar limon və mixəyin yaratdığı qarışıq qoxudan qaçırlar.



**Müdriklər deyib ki...**

***«Pessimist hər imkanda çətinlik, optimist isə hər çətinlikdə imkan görür».***

***Uinston Çörçill (1874-1965)***

